www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 fevral 2018-ci il Cümə № 31 (6920) Qiyməti 60 qəpik

**Xəbər**

## Cəbhədə erməni təxribatı: düşmən itki verib geri oturduldu

yazısı səh.3-də

**Gündəm**

### YAP seçkiyə İlham Əliyevlə gedir-prezidentdən mühüm mesajlar



Hakim partiyanın qurultayında prezidentliyə namizəd olan İlham Əliyev Qarabağ problemi, ölkədəki inkişaf və siyasi sabitlikdən danışdı

yazısı səh.4-də

### Fəzail Ağamalı və Əli Əliyevin "Yeni Müsavat"da debatı

yazısı səh. 8 və 9-da

### ABŞ-dakı mərkəzlər hakimiyyətə qarşı hərəkətə keçdilər

yazısı səh.5-də

### Rəsul Quliyevin Azərbaycana qayıdışı mövzusu qapanıb

yazısı səh.12-də

### "Bank Standard"ın tərk etdiyi tarixi bina - Mətbuat Sarayı...

yazısı səh.6-da

### Deputatın vahid namizəd təklifinə partiyalardan reaksiya

yazısı səh.5-də

### Boykot qərarında gizli razılaşma

yazısı səh.7-də

### Neft Fondunun aktivləri risk altında-səbəb

yazısı səh.10-da

### "Qarabağa gedən rusiyalı deputat cəzalansın" tələbi

yazısı səh.12-də

### Suriyada böyük güclərin "dünya müharibəsi"

yazısı səh.4-də

### Amerikadakı ölümcül qripin ölkəmizə gəlmə riski var - həkimdən SOS!

yazısı səh.14-də

### Azərbaycanın "qadın batalyonu"- feministlər...

yazısı səh.13-də

# Putin üz döndərir, ABŞ qucaq açır...

# AZƏRBAYCANDA PREZİDENT SEÇKİSİ ERMƏNİSTANI QARIŞDIRIR

Düşmən ölkədə erkən seçki mövzusuna diqqət artır; **erməni nəşrindən xəbərdarlıq:** "Seçkidən dərhal sonra isə Putin müharibə üçün Bakıya "dobro" verəcək"; Vaşinqtondan İrəvana reverans...



yazısı səh.7-də

## Binəqədinin icra başçısına yeni rüşvət ittihamları

Fevralın 7-də Xaləddin İsgəndərovun "qoçuları" qoca qadının evinə hücum edib; İctimai Nəzarət Koalisiyasının sədri icra başçısını rüsvay etdi: "Sizi bu qədər rüşvətxor bilməzdik"

yazısı səh.3-də



Məzahir Pənahov

### MSK sədrindən iki facebook açıqlaması-qadağa gəlir

yazısı səh.3-də



### Abutalıbovun oğlu adını dəyişib və 20 milyon dollara hotel alıb

yazısı səh.10-da



Aytac Əmiraslanova

### "Atamı onda suçlu sayıram ki..."- həbsdəki OMON-çunun qızından ilginc açıqlamalar

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 31 (6921) 9 fevral 2018



## Əfv Komissiyasının növbəti iclası keçirilib

**Fevralın 8-də Prezident yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib. İclasda əfvlə bağlı 100-ə yaxın müraciətə baxılıb və onların əksəriyyətinə müsbət rəy verilib.**

Qeyd edək ki, komissiyanın iclasları yekunlaşandan sonra əfv olunacaq şəxslərin siyahısı prezidentə təqdim olunacaq.

Əfv sərəncamının Novruz bayramı ərəfəsində imzalanması gözlənilir.(APA)

## "Azərbaycanda prezident seçkiləri ölkənin daxili işidir"

**Rusiya Xarici İşlər Nazirliyi Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərinə münasibət bildirib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə erməni jurnalistin Azərbaycanda prezident seçkilərinin vaxtının irəli çəkilməsinin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə təsiri barədə danışarkən bildirib ki, Azərbaycanda prezident seçkiləri bu suveren dövlətin daxili işidir:**

"Seçkilərin motivasiyası, formatı və səbəbləri ilə bağlı ilk növbədə Azərbaycan hökumətinə müraciət edilməlidir. Azərbaycan hökuməti də bunu artıq şərh edib".

## Putinin seçkilərdəki bütün rəqibləri bəlli oldu

**Rusiyada yenidən prezident postu uğrunda mübarizə aparan hazırkı dövlət başçısı Vladimir Putinin rəqibləri rəsmən bəlli olub. Rusiya Mərkəzi Seçki Komissiyası martın 18-də keçiriləcək seçkilərə qatılan prezidentliyə namizədlərin qeydiyyatını yekunlaşdırıb.**

Modern.az saytı TASS agentliyinə istinadən xəbər verir ki, seçkilərdə 8 namizəd mübarizə aparacaq. Bunlar aşağıdakı siyasətçilərdir:

Vladimir Putin, Sergey Baburin, Qriqori Yavlinski, Pavel Qrudinin, Vladimir Jirinovski, Kseniya Sobçak, Maksim Suraykin, Boris Titov.

## AŞ PA həmməruzəçilərinin səfəri təxirə salına bilər

**AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Stefan Şennak (Avstriya) və Sezar Florin Predanın (Rumıniya) Azərbaycana faktaraşdırıcı səfəri təxirə salına bilər.**

Həmməruzəçilərin səfərinin bu ilin fevralında baş tutacağı barədə bir müddət əvvəl xəbər yayılmışdı.

AŞ PA-dan APA-ya bildirilib ki, həmməruzəçilərin Azərbaycana səfərinin tarixi hələlik məlum deyil: "Biz əksər hallarda seçkilərdən qısa vaxt əvvəl faktaraşdırıcı səfərlər təşkil etmirik. Xüsusilə qeyd edək ki, həmməruzəçilər seçki müşahidə missiyasına daxil edilirlər".

Xatırladaq ki, AŞ PA-nın Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak bir neçə gün əvvəl özünün twitter səhifəsində tezliklə Azərbaycana faktaraşdırıcı səfər edəcəklərini açıqlayıb.

AŞ PA-nın daxili qaydalarına əsasən, seçki müşahidə missiyasının göndərilməsi ilə bağlı qərar seçki keçirəcək hökumətin dəvətindən sonra Büro tərəfindən verilməlidir.

## Qurban Qurbanov köməkçisini "Qarabağ"dan uzaqlaşdırdı

**Bir müddətdir "Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanovun köməkçisi vəzifəsində çalışan Namiq Yusifov baş məşqçinin qərarı ilə vəzifəsindən kənarlaşdırılıb.**

Bildirilir ki, N.Yusifov komandayla birgə Antalyaya təlim-məşq toplanışına gedib. Elə toplanış zamanı da Q.Qurbanov köməkçisini vəzifəsindən uzaqlaşdırıb.

Məsələni "Qarabağ" Futbol Klubunun mətbuat xidmətinin rəhbəri Nurlan İbrahimov modern.az-a açıqlamasında təsdiqləyib:

"Namiq Yusifov bir müddətdir klubumuzda məşqçi kimi fəaliyyət göstərirdi. Amma artıq onun klubumuzla əlaqəsi qalmayıb. Yeni vəzifəsindən kənarlaşdırılıb".

Qeyd edək ki, Namiq Yusifov 2016-cı ildə futbolçu karyerasını başa vurduqdan sonra "Qarabağ"da məşqçi kimi fəaliyyətə başlamışdı.

# "Könüllü-Tələbə" təqaüd proqramının bağlanış mərasimi keçirilib

**YARAT Müasir İncəsənət Məkanında "Könüllü-Tələbə" təqaüd proqramının bağlanış mərasimi keçirilib.**



Musavat.com xəbər verir ki, mərasimdə gənclər və idman nazirinin müavini İntiqam Babayev, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Fuad Muradov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev, kitabın müəllifi, doktor, dosent Nadir Adilov, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu və bir sıra rəsmilər iştirak ediblər.

Tədbir "Gəncsən? Başla!" şəxsi inkişaf kitabının təqdimat mərasiminin video-hesabatı ilə başlayıb.

Daha sonra isə çıxışlar başlayıb. Çıxış edən Ülvi Mehdiyev bildirib ki, "ASAN xidmət"də şəxslər könüllü olaraq fəaliyyətə başlayan andan onların hər birinin ideyaları dəstəklənir və bu ideyaların həyata keçirilməsi üçün şərait yaradılır.

**Fuad Muradov bildirib ki, gənclərin kitabdan danışması sevindirici haldır:** "Çox şadam ki, bir çox təşkilatlar bu layihəni dəstəkləyirlər. Biz həm qədim, həm də müasir ölkəyik. Gənclər bunu qoruyub saxlamalıdır".

Daha sonra təqaüd proqramının qaliblərinə mükafatlar verilib.

Sonda qonaqlara gənclərin ifasında canlı musiqi proqramı təqdim olunub.

Qeyd edək ki, aksiyanın əsas məqsədi gənclər üçün pozitiv məşğuliyyət aşılayan peşələrin tanıtımı olub. Azərbaycan Universitetinin Elmi Şurasının müvafiq qərarı ilə nəşr edilən "Gəncsən? Başla!" kitabının satışından əldə edilən vəsait müəllifin şəxsi təşəbbüsü ilə "Könüllü Tələbə" təqaüd proqramına yönəldiləcək.

❑ **Əli RƏİS,**
**"Yeni Müsavat"**



## Elmar Məmmədyarov Brüsselə gedib

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Brüsselə gedib.**

Bu barədə virtualaz.org-a Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat veriblər.

Bildirilib ki, nazir fevralın 9-da Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Şurasının 15-ci iclasında iştirak edəcək.

## Rusiyadan gətirilən hərbi texnikanın bir hissəsi silahlanmaya daxil edilib

**Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hökumətlərarası razılaşmaya əsasən ölkəmizə gətirilən müasir hərbi texnikanın bir hissəsi ordumuzun bölmələrinin silahlanmasına daxil edilib.**

MN-dən APA-ya verilən məlumata görə, silah və hərbi texnikanın döyüşə hazır vəziyyətə gətirilməsi məqsədilə keçirilən məşqlərdə hədəflərin dəqiq məhv edilməsinə, eləcə də atışların sıxlığına və sərrastlığına nail olunub.



## Sürüşmə zonasından ən son xəbərlər

**Son günlər ərzində Bayıl yamacında - Teleqüllənin yaxınlığında sürüşmə prosesi demək olar ki, dayanıb. Bunu «Trend»ə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının dəstə rəisi Rafiq Həsənov deyib.**

R.Həsənovun sözlərinə görə, son günlər ərzində yağıntılar müşahidə edilmədiyindən ərazidə vəziyyət stabildir: "Teleqüllənin yaxınlığında monitorinq məqsədilə quraşdırılmış mayaklarda heç bir dəyişiklik müşahidə edilməyib. Prosesin dinamikasında aktivləşmə yoxdur. Buna görə də sürüşmə sahəsinin və çatların genişlənməsi müşahidə edilməyib".

R.Həsənov əlavə edib ki, sürüşmə sahəsinin bir hissəsi evləri də əhatə edir.

ETSN rəsmisinin sözlərinə görə, əsas çatlar Bayıl yamacının yuxarı hissəsində qeydə alınıb: "Yamacın aşağı hissəsində də müəyyən qədər çatlar var. Yamacın yuxarı hissəsində olan proses onun aşağı hissəsinə, eləcə də oradakı evlərə öz təsirini göstərib. Burada təhlükə ondan ibarətdir ki, aşağı hissədə o qədər böyük çatlar olmasa belə, aktivləşmə davamlı olacağı təqdirdə yuxarı hissədəki böyük süxur kütləri yaşayış evlərini basa bilərdi".

R.Həsənov Bayıl yamacında baş verən bu proseslərin sürüşmə-oturma prosesi olduğunu da açıqlayıb.

Qeyd edək ki, Bayıl qəsəbəsində sürüşmə zonasında prosesin aktivləşməsi nəticəsində evlərdə çatların sayı artıb. Sürüşmə zonasında 90-a yaxın ev qəzalı vəziyyətdədir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**




## Qış Olimpiya Oyunları başladı

**Koreya Respublikasının Pxençan şəhərində XXIII Qış Olimpiya Oyunları başlayıb.**

Olimpiadanın startında kerlinq, dağ xizəyi, biatlon və xizəklə tramplindən tullanma yarışları keçirilir.

"Pxençan-2018" Olimpiya Oyunlarında 92 ölkədən 2952 idmançı iştirak edir. Bu, indiyə qədər Qış Olimpiadasında iştirak etmiş ən çox idmançı sayıdır. Oyunlara ən çox idmançı ilə qatılan ölkə Amerika Birləşmiş Ştatlarıdır (242 atlet).

"Pxençan-2018"də yarışlar 13 idman obyektində keçirilir. Onların ümumi tamaşaçı tutumu 135 min nəfərdir. Olimpiadanın açılış mərasimi fevralın 9-da 35 min azarkeş tutumuna malik Pxençan Olimpiya Stadionunda təşkil olunacaq.

Atletlər 7 idman növündə 102 dəst medal uğrunda yarışırlar. Medalların birinin çəkisi 586 qramdan artıqdır. Bu, Qış Olimpiya Oyunları tarixində çəkisinə görə ən ağır mükafatdır.

Olimpiadada Azərbaycan 1 idmançı ilə təmsil olunur. Patrik Braxner dağ xizək idmanında yarışlara qatılacaq.

XXIII Qış Olimpiya Oyunları 6 yeni ölkənin debütü ilə də əlamətdar olacaq. Ekvador, Eritreya, Kosovo, Malayziya, Nigeriya və Sinqapur tarixində ilk dəfə Qış Olimpiya Oyunlarında iştirak edəcəklər.

Qeyd edək ki, fevralın 9-dan 18-dək Pxençanda Qış Paralimpiya Oyunları keçiriləcək. Paralimpiyaçılar 5 növdə 80 dəst medal uğrunda mübarizə aparacaqlar.

## Saakaşvili:"Ermənistanda siyasi bataqlıq Ukraynadakından daha dərindir"

**"Mən düşünürdüm ki, Ukraynada dərin siyasi bataqlıq var. Lakin etiraf etmək lazımdır ki, bu, Ermənistanda daha dərindir".**

Bu barədə Gürcüstanın sabiq prezidenti, Ukraynanın Odessa vilayətinin keçmiş rəhbəri Mixail Saakaşvili facebook səhifəsində yazıb.

Saakaşvili Ermənistandakı problemlərin qaydasına düşəcəyinə inanmaq istədiyini deyib.(azvision.az).

Qeyd edək ki, Ermənistanın paytaxtı İrəvanda Saakaşvilinin erməni dilinə tərcümə olunmuş "Gücün oyanışı" adlı kitabının təqdimat mərasimi keçirilməli idi. Təqdimatın əvvəlcə Yeqiş Çarenç adına ev-muzeydə, daha sonra "Noyan Tapan" kitab mağazasında keçirilməsi gözlənilirdi. Son anda təqdimat mərasimi təxirə salınıb.

"Armtimes"ın məlumatına görə, facebookun erməni auditoriyası - deputatlar, jurnalistlər, publisistlər təqdimat mərasiminin ləğvini müzakirə edərək Yerevanın bu addımını senzura kimi dəyərləndiriblər.

# MSK sədrindən iki facebook açıqlaması-qadağamı gəlir?

## “Seçki kampaniyasında facebook bağlana bilər” iddiası

**“Fevralın 9-dan İctimai Televiziyada mərkəzi seçki komissiyalarının üzvləri çıxış edəcək. İctimai Televiziyadakı çıxışlar eyni zamanda İctimai Radioda yayımlanacaq”.**

Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında MSK sədri Məzahir Pənahov bildirib.

**M.Pənahov** deyib ki, dairə seçki komissiyalarının (DSK) üzvləri ilə müşavirə də tezliklə keçirilməlidir: “Daha sonra isə yerlərdə DSK üzvləri və məntəqə seçki komissiyalarının üzvlərinin iştirakı ilə belə tədbirlər keçirilməlidir. Azərbaycan prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Mətbuat Şurasının sədri Əflatun Amaşov və Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmlinin də iştirakı ilə mətbuatla bağlı tədbir də keçirilməlidir. Eyni zamanda hesab edirəm ki, sosial şəbəkələrlə bağlı da təklif hazırlamalıyıq. Bunu tez hazırlamalıyıq ki, sosial şəbəkələrdə monitorinq təşkil edilsin və seçkiqabağı təşviqatı pozanlar haqqında müvafiq tədbirlər görülsün, təşviqatı pozanlar cəzalandırılsın. Seçki siyasi maraqları olan tərəflərin mübarizəsidir”.

Qeyd edək ki, sosial şəbəkələrə nəzarət məsələsini son



iki gündə Məzahir Pənahov ikinci dəfədir MSK-nın iclasında qaldırır. Mərkəzi Seçki Komissiyanın sədri fevralın 6-da demişdi ki, təşviqat prosesinin tənzimlənməsində sosial şəbəkələr problemlər yaradır. O bildirib ki, sosial şəbəkələr idarəolunmaz amilə çevrilib, bu isə MSK üçün pis vəziyyət yarada bilər: “Bəzən kimsə hansısa namizədi tənqid edir, bunun özü də təşviqat sayılır. MSK, seçki komissiyaları bu hallarda pis vəziyyətdə qalır. İndiyə qədər bu amilə görə MSK hansısa namizədin namizədliyini ləğv etməyib. Sosial şəbəkələr bizim üçün çox pis vəziyyət yarada bilər. Biz beynəlxalq təşkilatların nümayəndələri ilə bu halda məsləhətləşib namizədlə bağlı addım atacağıq”.

M.Pənahovun seçki kampaniyası başlayan gündən sosial şəbəkələrdən narahatlığını dilə gətirməsi müxalif düşərgədə, aktiv sosial şəbəkə iştirakçılarında və bəzi ekspertlərdə belə rəy yaradıb ki, seçkinin təbliğat-təşviqat mərhələsində (21 gün) sosial şəbəkələrə, əsasən də facebooka çox ciddi nəzarət mexanizmi, hətta ola bilsin məhdudiyyətlər tətbiq olunacaq. Bu cür düşünənlər hesab edir ki, bəzi müxalifət liderləri sosial şəbəkələrdə aktivdirlər. Xalqa sözlərini çatdırmaq üçün buradan ciddi şəkildə yararlanırlar. Bütün bunların qarşısını almaq üçün addımlar atılması istisna deyil.

Onu da bildirək ki, “KİV haqqında" Qanunla Azərbaycanda internet, o cümlədən sosial şəbəkələr kütləvi informasiya vasitəsi sayılır.

Media üzrə hüquqşünas Xalid Ağaliyev bildirib ki, seçki qanunvericiliyinə görə, dövlətin öhdəliyi var ki, 21 günlük təşviqat müddətində, büdcədən maliyyələşən media, namizədlərə bərabər imkanlar yaratsın. Qalan müddətdə isə namizədin büdcədən maliyyələşməyən mediada, o cümlədən sosial mediada öz platformasını müdafiə etməsi üçün hansısa məhdudiyyət yoxdur, seçkidə namizədlərin bir-birini tənqid etməsi hansısa qanun pozuntusu deyil.

Düşünürəm ki, ölkə daxilində facebooka girişin məhdudlaşdırılması mümkündür. Qanunvericilikdə internetin hansısa formada blok edilməsi, məhdudlaşdırılması yalnız fövqəladə hallarda mümkündür. Amma hökumət hansısa daxili qanunla facebooku bloklaya bilər. Biz bundan əvvəl tənqidi beynəlxalq medianın bloklanmasının şahidi olmuşuq".

Xalid Ağaliyev deyir ki, indiki halda qanunla, yalnız seçkinin məqsədlərindən çıxıldığı halda facebooku media kimi bloklamaq qanuni əsas yarada bilər. Onun sözlərinə görə, bu, məsələn, facebookda zorakılığa çağırış ola bilər.

Qeyd edək ki, bütün bunlar ehtimallardır. Hələlik Azərbaycanda hökumətin sosial mediaya girişə məhdudiyyət qoymasına dair rəsmi bir məlumat yoxdur. Azərbaycan prezidenti ən yüksək səviyyəli beynəlxalq tribunalarda, görüşlərdə çıxışlarında dəfələrlə bəyan edib ki, Azərbaycanda internet azadlığı, sosial şəbəkələrə çıxış tamamilə azaddır.

❑ **Etibar SEYİDAĞA,**
❑ **“Yeni Müsavat”**

# Binəqədinin icra başçısına yeni rüşvət ittihamları

Fevralın 7-də Xaləddin İsgəndərovun “qoçuları” qoca qadının evinə hücum edib; **İctimai Nəzarət Koalisiyasının sədri icra başçısını rüsvay etdi:** “Sizi bu qədər rüşvətxor bilməzdik”





**Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun qoçu dəstələri saxlaması, dəstələrdə təmsil olunan şəxslərin kimliyi, harada, hansı vəzifələrdə çalışdıqları haqda mətbuatda kifayət qədər məlumat yayılıb. Amma müvafiq orqanlar icra başçısının dəstələrində olanlara qarşı tədbir görməyə tələsmirlər. Bu dəstələrdə olanlar da cəzasızlıq mühitindən vətəndaşlara qarşı qanunsuzluqlarını davam etdirməklə yararlanırlar. Fevralın 7-də özünü Binəqədi Rayon İcra Hakimiyyətinin Biləcəri qəsəbəsi üzrə nümayəndəliyinin əməkdaşı kimi təqdim edən Rəfael adlı şəxs başının dəstəsi ilə 99 saylı sahədə yerləşən Ceyran Alışan qızı Rəfiyevanın evinə hücum edib. Onlar ahıl qadının əlindəki tikintiyə aid sənədlərinə məhəl qoymayaraq hasarını uçurublar, ondan 7 min manat rüşvət tələb ediblər. Bu haqda İctimai Nəzarət Koalisiyasının sədri Rasim Məmmədov youtube kanalında çıxış edib. Hadisə yerinə gedərək sökülmüş hasarın fonunda mülk sahibi Ceyran Rəfiyeva ilə baş verənləri anladıblar.**

Rasim Məmmədov deyir ki, vətəndaş Binəqədi rayonu, Biləcəri qəsəbəsində 3 sot yarım sahə alıb və özəlləşdirib. Bütün strukturlardan keçərək mülkiyyət hüququ alıb və ev tikintisinin eskizini çəkdirib. Binəqədi Rayon İcra hakimiyyətinin Biləcəri qəsəbəsi üzrə nümayəndəliyinin rəsmiləri isə tikinti aparmaq üçün vətəndaşdan 7 min manat rüşvət tələb edirlər. R.Məmmədov bildirir ki, vətəndaş bundan sonra İctimai Nəzarət Koalisiyasına müraciət edib. Koalisiya rəsmiləri vətəndaşın əlindəki sənədlərə baxıblar. Müəyyən ediblər ki, sənədlər cənab prezidentin sərəncamına uyğundur və yeni qanuna uyğun olaraq vətəndaş Binəqədi Rayon İcra Hakimiyyətinə sərəncamı, eskizi və digər zəruri sənədləri təqdim edib. Tikinti aparılmasına razılıq verilməsi üçün qanuna müvafiq qaydada 1 ay gözləyiblər. Bundan sonra tikintiyə başlayıblar. R.Məmmədov qeyd edir ki, vətəndaş torpağı bələdiyyədən alıb və bundan sonra Binəqədi Rayon İcra Hakimiyyətinə müraciət etməklə torpağa dair sərəncam alıb. Sərəncamı alandan sonra Binəqədi Rayon İcra Hakimiyyətinin tövsiyəsi ilə kanalizasiya və digər kommunikasiya vasitələri ilə bağlı da addımlar atıblar. Bundan sonra ahıl yaşda olan qadınla yeganə oğlu torpağı şəxsi mülkiyyətlərinə çeviriblər. Eskiz çəkdirib Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərova müraciət ediblər. Bundan sonra onun qoçuları - Biləcəri İcra Nümayəndəliyində işlədiyini iddia edən Rəfael adlı, 40-45 yaşlı şəxs qoçularla gələrək vətəndaşın hasarını dağıdıb.

**R.Məmmədov Xaləddin İsgəndərova müraciətlə deyir:** “Xaləddin İsgəndərov, mən sizə müraciət etdim, siz məni aldatdınız. Vətəndaşın pis vəziyyətdə qaldığını görüb Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbova müraciət etdim. Hacıbala Abutalıbov vəziyyəti görən kimi qoca ananın ərizəsinin üzərinə ”Hörmətli Xaləddin müəllim, xahiş edirik qanun çərçivəsində həll edin" dərkənarını yazdı. Ahıl ana həmin ərizəni evinə gələn Rəfailə göstərib. Rəfael isə deyib ki, sənəd saxtadır, Hacıbala müəllim belə şey yazmaz".

**R.Məmmədov sual edir:** “Hacıbala Abutalıbovun imzasını tanımayan bir insan burada quldur kimi rüşvət toplayır, camaatın evini uçurur. Ölkə başçısı korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə apardığı bir vaxtda, vətəndaşları birgə mübarizəyə çağırdığı bir vaxtda Xaləddin İsgəndərov, Fazil Məmmədovun qohumu buranı dağıtdırır. Xalqını, dövlətini, prezidentini sevən insanlara müraciət edirəm. Bu yaşlı ananın ahı onları tutacaq. Bu ərazidə yaşayanların hər biri bilir ki, bu ana-balanın bura şəxsi mülkiyyətləridir. Xaləddin müəllim, biz sizi bu qədər rüşvətxor bilməzdik. Bu xanımın vicdanı və namusu var, sənin isə tamahın böyükdür”.

**R.Məmmədov Xaləddin İsgəndərovun Bakı-Sumqayıt yolunda, Avtovağzalın yaxınlığında “Evim” restoranı tikdirdiyini də diqqətə çatdırıb. Deyib ki, həmin restoran gediş-gəlişə mane olur, ərazidə tikinti aparmaq belə təhlükəlidir:** “Özün orada tikinti aparmısan, bu kasıb ailənin 3 sot yarımlıq torpağında qanuni şəkildə tikinti aparmağa isə icazə vermirsən. Əgər sən prezidenti sevən başçı olsaydın, vətəndaşa sement göndərərdin, prezident seçkisi qabağı narazılıq yaratmazdın”.

**R.Məmmədov yaşlı qadının əlindən öpür, onun əllərindəki qabarları göstərək deyir:** “Bu xanımın əl qabarları Xaləddin İsgəndərovu kor qoyacaq”.

**Koalisiya sədri ölkə rəhbərliyinə müraciət edərək Biləcəri qəsəbəsində baş verən özbaşınalıqlarla bağlı tədbir görülməsini xahiş edib.**

❑ **E.MƏMMƏDƏLİYEV**
**“Yeni Müsavat”**

## Cəbhədə erməni təxribatı: düşmən itki verib geri oturuldu

**Cəbhə xəttinin Füzuli istiqamətində Azərbaycan ordusunun ön xətdə yerləşən mövqelərinə qarşı düşmən tərəfinin növbəti təxribat cəhdinin qarşısı bölmələrimiz tərəfindən görülən qabaqlayıcı tədbirlər nəticəsində alınıb.**

Bu barədə lent.az Müdafiə Nazirliyindən Ermənistan mətbuatının erməni hərbi qulluqçusu Ayk Kələntəryanın guya atəşkəs rejiminin pozulması nəticəsində ölməsi barədə yaydığı məlumatları şərh edərkən bildirilib.

Məlumatda qeyd edilib ki, Ermənistan silahlı qüvvələri bölmələrinin 1 hərbi qulluqçusu məhv edilib və 2 hərbçisi isə ağır yaralanıb. Düşmən geri çəkilməyə məcbur edilib.

Azərbaycan ordusunun bölmələri cəbhə xəttində əməliyyat şəraitinə tam nəzarət edir.

YENİ MÜSAVAT
N 31 (6920) 9 fevral 2018

**Fevralın 8-də hakim Yeni Azərbaycan Partiyasının Heydər Əliyev Mərkəzində qurultayı keçirildi. Qurultayda partiyanın sədri, ölkə prezidenti İlham Əliyevin yenidən namizədliyi aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində irəli sürülüb.**

# YAP seçkiyə İlham Əliyevlə gedir- prezidentdən mühüm mesajlar

## Hakim partiyanın qurultayında prezidentliyə namizəd olan İlham Əliyev Qarabağ problemi, ölkədəki inkişaf və siyasi sabitlikdən danışdı



Qərar yekdilliklə qəbul olunub. YAP-ın sədr müavini-icra katibi Əli Əhmədov seçkilərdə partiyanın sədri İ.Əliyevin namizədliyinin irəli sürülməsi barədə qurultayın qərarını təqdim edib.

Daha sonra çıxış edən ölkə başçısı ona göstərilən etimada görə təşəkkür edib. Prezident çıxışında ciddi məqamlara toxunmaqla yanaşı, bir sıra mesajlar da verib.

**Öncəliklə ölkə başçısı ərazimizdə ikinci bir erməni dövlətinin qurulmasına imkan verilməyəcəyini bildirib:** "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində və beynəlxalq hüquq normalarına uyğun həll edilməlidir. Biz heç vaxt imkan verə bilmərik ki, ərazimizdə ikinci erməni dövləti yaransın". **Ali Baş Komandan daha sonra deyib:** "Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".



**Çıxışında prezident ölkə daxilindəki sabitliyə də toxunub:** "Ölkəmizdə ictimai asayiş qorunur, kriminogen durum çox müsbətdir, Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bunu Azərbaycan vətəndaşları yaxşı bilirlər, ölkəmizə gələn çoxsaylı turistlər görürlər. Təhlükəsizlik və sabitlik bizi fərqləndirən müsbət amillərdir. Bizim son illər apardığımız siyasət özünü tam doğrultdu, Azərbaycanda sabitlik mövcuddur. Qeyd etdiyim kimi, sabitlik hər bir inkişafın əsas şərtidir. Biz görürük ki, son 5-6 il ərzində dünyanın müxtəlif yerlərində, bizim regionumuzda çox ciddi, narahatedici proseslər gedir. Qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, ölkələrin bir-birinin işinə kobudcasına qarışması, hərbi müdaxilələr - bütün bunlar bizim gözümüzün önündə baş verən məsələlərdir. Biz görürük və bütün bəşəriyyət əyani şəkildə görür ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz. Bu, xalqlara, ölkələrə böyük bəlalar, faciələr gətirir. Bu gün dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır".

**Azərbaycan-Avropa münasibətlərindən söz açan İ.Əliyev əməkdaşlığın davam edəcəyinin söyləyib.**

**Dövlət başçısı bu il 20 min məcburi köçkünün evlə təmin olunacağını söyləyib:** "Məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və mənzillərlə, evlərlə təmin edilməsi istiqamətində bundan sonra da uğurlu siyasət aparılacaq. Bu il 20 minə yaxın, bəlkə də bundan da çox köçkünü yeni evlərlə təmin edəcəyik. Bu siyasət davam etdiriləcək. Torpaqlarımız işğaldan azad olunandan sonra biz bu gün erməni vəhşiləri tərəfindən dağıdılmış bütün şəhərləri, kəndləri yenidən quracağıq. Cocuq Mərcanlı kəndinin timsalında bütün dünya görür ki, biz buna qadirik".

**Prezident 90-cı illərdən və AXC-Müsavat cütlüyünün hakimiyyətindən də danışıb:** "1992-ci ildə qanunsuz şəkildə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi uçuruma aparırdı. Azərbaycanda iqtisadi tənəzzül, sənayenin iflic vəziyyətə düşməsi, siyasi, iqtisadi, ondan sonra da hərbi böhran demək olar ki, müstəqilliyimizi şübhə altına alırdı. Belə bir vəziyyətdə Azərbaycan xalqı öz liderinə üz tutdu və partiyamızın yaradılması, əlbəttə ki, burada həlledici rol oynadı. Onu da biz yaxşı xatırlayırıq və əlbəttə, partiya üzvləri bunu bilir, Azərbaycan ictimaiyyəti də bilir ki, o vaxt hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş hakimiyyət imkan verməmişdi ki, partiyamızın qurultayı Bakıda keçirilsin".

❑ **Cavanşir ABBASLI,**
❑ **"Yeni Müsavat"**

# Suriyada "dünya müharibəsi"

## Dünya güclərinin daha aktiv iştirak etdiyi Suriyada proseslər dalana dirənir




**Suriya ətrafında beynəlxalq vəziyyət günü-gündən daha da mürəkkəbləşir. Məsələ ondadır ki, əgər 7 və ya 3 il əvvəl Suriya münaqişəsində iki əsas tərəf vardısa, indi maraqlı qrupların və siyasi-hərbi oyunçuların sayı artıb, daha doğrusu, əvvəlki bloklar parçalanıb. Konkret olaraq Suriyanın şimalında hazırda xeyli mürəkkəb vəziyyət yaranıb.**

Bir tərəfdən Rusiya, İran və Dəməşqə bağlı qüvvələr İdlibdə Qərbin və ərəb ölkələrinin dəstəklədiyi radikal qruplara qarşı savaşır, digər tərəfdə Türkiyə ABŞ-ın açıq müttəfiqi olan kürdlərə qarşı Afrində əməliyyat keçirir. Ötən gün isə Deyr əz-Zor vilayətində ABŞ hərbi koalisiyası havadan Suriya ordusu və müttəfiq qüvvələrini bombalayıb. Nəticədə Suriya ordusu və onlara dəstək verən tayfa silahlı birliklərinin üzvü olan 100-ə yaxın silahlı şəxs öldürülüb. Proseslərin gedişi göstərir ki, vəziyyət getdikcə daha da mürəkkəbləşəcək.

ABŞ Türkiyə ilə NATO müttəfiqi olsa da, sahədə faktiki olaraq rəqibdir, Rusiya və İran isə Türkiyə ilə Astana və Soçi prosesində birgə hərəkət etsə də, sahədə açıq dəstək vermir. Bu vəziyyətin getdikcə daha da qarışdığı müşahidə olunur. Məsələ ondadır ki, Afrin və Menbic kimi kürd bölgələrində amerikalı hərbçilər son günlər tez-tez görünməyə başlayıb, hətta Afrində də YPG geyimində amerikalıların olması ilə bağlı iddialar ortaya atılıb. Bu vəziyyət Vaşinqton-Ankara xəttində ciddi narahatlıq yaradır.

Görünür, bu səbəbdən də Vaşinqton yenidən Türkiyə ilə diplomatik aktivliyi artırır. Yerli medianın yazdığına görə, gələn həftə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri H.R. Makmaster İstanbula səfər edəcək, ondan bir neçə gün sonra isə dövlət katibi Reks Tillerson Ankaraya gələcək.

Əsas müzakirə mövzusu Afrin əməliyyatı və onun davamı kimi Menbicdə nəzərdə tutulan əməliyyat olacaq. Ehtimala görə, Vaşinqton Ankaraya Suriyanın şimalında birgə fəaliyyətlə bağlı təklif verəcək. Çünki əks təqdirdə, Vaşinqton və Ankara Menbicdə faktiki olaraq silahlı qarşıdurma yaşaya bilər. Yeri gəlmişkən, Tillersonun ötən həftə Türkiyə hökumətinə sərhəddən içəriyə *(Suriya ərazisində - K.R.)* 30 kilometr dərinlikdə təhlükəsizlik zolağı təklifi də Ankara tərəfindən qəbul edilməyib.

Qeyd edək ki, hər iki şəxs ABŞ-ın hazırkı xarici siyasətini müəyyən edən fiqurlardır. Makmaster İraq və Əfqanıstan savaşlarında iştirak etmiş generaldır, Trampın xarici siyasət qərarlarına birbaşa təsir edən açar şəxsdir. Ancaq Makmasterin Ankara ilə münasibətlərində ciddi soyuqluq var. Trampın müşaviri ötən ilin sonlarında Vaşinqtonda bir konfransda Türkiyə və Qətər dövlətini Yaxın Şərqdə radikal ideologiyaların əsas sponsoru adlandırmışdı. Oxşar açıqlamanı ötən il Tillerson da verib. Bu fakt hər iki şəxsin Türkiyə barədə mövqeyini ortaya qoymaqla yanaşı, gözlənilən danışıqların nəticələri ilə bağlı ümidsizlik verir.

Maraqlıdır ki, ötən həftə Soçidə Suriya Milli Dialoq Konqresi və bundan az sonra Rusiya təyyarəsinin vurulmasının ardınca Rusiya "cəbhəsində" də fəallaşma var. Ötən gün Rusiya və Türkiyə prezidentləri arasında telefon danışıqları olub. Telefon danışıqları zamanı liderlər İdlib və Afrində davam edən hərbi əməliyyatları müzakirə ediblər, eyni zamanda ötən il Soçidə təşkil olunan Rusiya, Türkiyə, İran dövlət başçılarının ikinci sammitinin İstanbulda keçirilməsi qərara alınıb.

Britaniyanın "Times" nəşri isə Türkiyə və Suriya ordusunun Suriyanın şimal-qərbində qarşı-qarşıya gəldiyini yazıb. Qəzetin yazısında qeyd olunur ki, Türkiyə son günlər İdlib vilayəti və Hələbin cənubuna hərbi qüvvələr göndərir. "Zeytun budağı" əməliyyatına aid olmayan bu hərəkət Türkiyə və Suriya hökumət qüvvələri arasında məsafənin xeyli azaldığı, hazırda bəzi yerlərdə 3,2 kilometrə qədər yaxınlaşdıqları bildirilir. Yazıda Türkiyə ordusunun Rusiya və İranla ortaq anlaşma əsasında İdlibdə atəşkəs bölgəsi yaratmaq üçün yerləşdiyi və son hərəkətlər nəticəsində Suriya ordusu ilə qarşılaşdığı qeyd olunur.

Türkiyə ordusunun irəlilədiyi bir zamanda Suriya ordusu da cənubdan İdlibi təmizləməyə davam edir. Ehtimal ki, Ankaranın İdlibin içərilərinə əsgər göndərməsi də gözlənilən vəziyyətlə əlaqədar olub. Çünki Suriya ordusunun İdlibi ələ keçirməsi Türkiyənin Suriya üzərindəki təsirini azaldacaq. Üstəlik, İdlib hökumətin əlinə keçərsə, buradakı müxalif qruplaşmalar ya təslim olmağa, ya da Türkiyə ərazilərinə keçməyə məcbur olacaqlar. Suriya ordusunun yenidən Türkiyə-Suriya sərhədlərinə qayıtması bu mənada Ankara üçün indiki şərtlərdə əlverişsizdir. Çünki Ankara həm sərhədlərin təhlükəsizliyi, həm də Suriyanın siyasi gələcəyi ilə bağlı danışıqlarda dəstəklədiyi müxalif qüvvələrə siyasi-hərbi üstünlük qazandırmaq üçün İdlib, Afrin, Azez-Cerablus xətti və nəhayət, növbəti mərhələdə Menbic-Tel Abyad xəttini PYD-dən təmizləməyi düşünür.

Vəziyyətin bu istiqamətdə irəliləməsi Suriyada böyük toqquşmanı daha da yaxınlaşdırır. Türkiyə indi həm ABŞ-la kürd məsələsi ilə bağlı anlaşmalıdır, həm də Rusiya ilə İdlib və Afrinin taleyi ilə bağlı razılaşmalıdır. Çünki kürdlər Afrini itirmək təhlükəsi qarşısında qalarsa, bir variant kimi onu Suriya ordusuna təslim edə bilərlər. Proseslərin hansı istiqamətdə cərəyan edəcəyini isə qarşıdakı həftələrdə görə biləcəyik.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 31 (6920) 9 fevral 2018

# ABŞ-dakı mərkəzlər hakimiyyətə qarşı hərəkətə keçdilər

**Azərbaycanda aprelin 11-nə növbədənkənar prezident seçkilərinin təyin edilməsi ABŞ və Qərbin bəzi dairələrinin bəyanatları ilə müşahidə olunmaqdadır.**

## "Freedom House" təşkilatının sabiq prezidenti Kramer və ABŞ dövlət katibinin sabiq müavini Melia seçkilərin erkən keçirilməsini tənqid etdi; Bakıdan da sərt reaksiyalar var


Tomas Melia


David Kramer

Sərt açıqlamalardan biri "Freedom House" təşkilatının sabiq prezidenti və hazırda Florida Beynəlxalq Universitetinin aparıcı elmi əməkdaşı David Kramerə məxsusdur. O, açıq şəkildə beynəlxalq aləmi növbədənkənar seçkilərin təyin olunması ilə bağlı Azərbaycan tərəfi qınamağa çağırır.

**Sitat:** "Seçkiləri erkən keçirmək qərarı pis qərardır. Bu, müxalifətə hazırlaşmaq üçün vaxt, rəqabət aparmaq imkanı vermir. Azərbaycan mühüm ölkədir. Mən Azərbaycanın müvəffəq olmasını, çiçəklənməsini və başqaları üçün nümunə olmasını istəyirəm. Ancaq bu ölkənin götürdüyü istiqamət onun gələcəyi ilə bağlı ciddi narahatlıqlara əsas verir".

"Human Rights Watch" insan haqları təşkilatının Avropa və Orta Asiya bölümünün təbliğat direktoru Philippe Dam fevralın 9-da Avropa Birliyinin (AB) baş diplomatı Federika Moqerininin Brüsseldə azərbaycanlı həmkarı Elmar Məmmədyarovla olacaq görüşünə toxunaraq, öz tənqidi mövqeyini sərgiləyib.

"Azərbaycan aprelə növbədənkənar seçki təyin edib, bu qəfil addım tənqidçilərin daha artıq sıxışdırılmasıyla sonuclana bilər. Mogerini Məmmədyarova mütləq deməlidir ki, Azərbaycanın ədalətsiz yerə həbs olunanları buraxmaması və vətəndaş cəmiyyətinə məhdudiyyətlərə son qoymaması hər hansı yeni tərəfdaşlıq sazişinə AB-nin dəstəyinə təhlükə yaradır" deyə, HRW təmsilçisi vurğulayır.

**2010-15-ci illərdə ABŞ dövlət katibinin müavini olan və sonralar USAİD-in köməkçisi vəzifələrində işləmiş Tomas Melianın məqaləsi də açıq şəkildə Azərbaycana hücum kimi qiymətləndirilir. O, əslində qərəzli mövqeyi qeydləri ilə göstərib. Dövlət katibinin sabiq müavininin məqaləsinin bu hissəsinə diqqət edək:** "Azərbaycanda prezident seçkilərinə bənzəyən nəsə keçiriləcək. Və əgər tarix nəyisə öyrədirsə, ovuclarını Azərbaycan Dövlət Neft Şirkətinin səxavətində qızdıran bir dəstə çirkli Avropa siyasətçisi bu seçkilərin legitimliyini tərif edəcəklər. Lakin əgər Əli Kərimli kimi gerçək müxalif siyasətçilər ölkənin mediasından təcrid edilir və dəfələrlə səsvermədən kənarda saxlanılırsa, bu seçkilərdə, ümumiyyətlə, heç bir real mübarizədən danışmağa dəyməz".

Bu tipli təzyiqlər mətbuat səviyyəsində də gəlməkdədir. Belə ki, "Vaşinqton Post" qəzeti və "Blomberg" agentliyi kimi nüfuzlu mətbu orqanlarda dərc olunan yazılarda Azərbaycanda keçiriləcək seçkilərə toxunulur. Həmin yazılarda seçkilərin ön tarixə çəkilməsi qeyd olunur, bunun nəticəsində müxalifətin böyük bir kəsiminin seçkiləri boykot etdikləri bildirilir və bütün bunlar tənqid olunur.

Siyasi şərhçilər belə təzyiqlərin seçkilərə doğru hər an güclənə biləcəyini qeyd edirlər.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev bu cür təzyiqlərə sərt reaksiya verdi:** "Bizdən İlqar Məmmədovun azad edilməsini tələb edirlər. Qardaş Türkiyə böyük dosyelər hazırlayıb və Fətullah Gülənin ekstradisiyasını istəyir. Amma daim cavab verirlər ki, biz məhkəmə işinə müdaxilə edə bilmərik. Azərbaycanda isə hakimiyyətin məhkəmənin işinə müdaxilə etməsini tələb edirlər. Heç bir şəxsin statusu onu məsuliyyətdən yayındırmır. Seçkilərlə bağlı baş verənlər də işimizə birbaşa qarışmaqdır. Əslində prezident səlahiyyətinin 6 ayını itirir, yəni vaxtından əvvəl seçkilərə gedir. Burada müəyyən səbəblər var və tamamilə doğru qərardır. Burada söhbət yalnız Azərbaycanın milli maraqlarından gedir. Bizim əraziləri işğal edən Ermənistan seçkilərə gedir. Eyni zamanda Rusiyada da seçkilərdir. Bu ölkələrdə keçiriləcək seçkilərin birbaşa Qarabağ məsələsinə də təsiri var. Daim Ermənistan tərəfi seçkilərdən dərhal sonra danışıqların sıfırdan başlamasına çalışır. Burada nəinki hakimiyyət, həm də sistem dəyişikliyi baş verir. Azərbaycan tərəfi bunların fərqindədir. Nəzərə alaq ki, yay dövrü dünya siyasətinin yatan dövrüdür. Biz yaydan sonra seçkilərə getsək, ermənilər hazırlıqlı şəkildə payıza qədəm qoyacaqlar. Əgər ermənilər yenə payızda ənənəvi üsullarına əl atmağa çalışsalar, o zaman biz lazımi addımlarımızı ata biləcəyik. Bunları seçki vaxtı etmək çətindir. Müxalifətdə olan partiya liderləri kimi mənə də iki ay seçkiyə hazırlıqla 6 ay hazırlıq arasında böyük fərqlər var. Amma bizim üçün dövlət maraqları partiya maraqlarından üstündür. Bu cür qərarlarla böyük dövlətlər, beynəlxalq qurumlar göstərirlər ki, ölkəmizə qarşı qərəzli münasibətləri dəyişməyib. Bu baş verənlər Amerika dövlətinin mövqeyi deyil. Bu hakimiyyətdəki bir qrupun mövqeyi kimi qəbul olunmalıdır. ABŞ Azərbaycan kimi bir strateji tərəfdaşını itirmək istəmir".

**Siyasi ekspert Nəzakət Məmmədova bu cür təzyiqlərin seçkiöncəsi olmasını gözlənilən sayır:** "Təəssüf ki, seçki kimi demokratiyanın mühüm bir elementi müasir dövrdə artıq böyük dövlətlərin təzyiq və təhdid vasitəsilə, bir-birilərinin daxili işlərinə müdaxilə vasitəsinə çevrilib. Onlar bununla seçki keçirən ölkələrə təzyiq göstərib güzəştlər qoparmağa, müstəqil siyasət yeritməsinə mane olmağa çalışırlar. Seçkiqabağı ölkəmizə ənənəvi təzyiqlərin olması gözləniləndir. Bu, artıq ABŞ-ın və Qərb təşkilatlarının dəst-xəttinə çevrilib. Hətta həmsədr ölkə kimi bu yaxınlarda Minsk Qrupunun müşahidə missiyasının genişləndirilməsi də Azərbaycanı cilovlamaq, təcavüzkarın cavabını verməməsi üçün düşünülmüş bir plandır. Qərb özü, məsələn, Rusiyanın kibervasitələrlə seçkilərə müdaxilə kimi araşdırılsa, Azərbaycanın da tam haqqı var ki, ölkəyə ötürülən gizli maliyyəni, müxalifət adlandırılan bəzi qüvvələrlə gizli görüşləri, sövdələşmələri araşdırsın.

Çünki xalqın adından danışan, onun iradəsini ifadə etdiyini iddia eləyən heç bir qüvvənin xarici ölkələr qarşısında öhdəliyi olmamalıdır. Ancaq ABŞ və bəzi Qərb ölkələri demokratiyadan danışsa da, əslində xalqın iradəsinin təmsilçilərini yox, özlərinə sadiq qüvvələri hakimiyyətə gətirmək istəyirlər. Bəs bu, xalqın iradəsinə hörmətsizlik, demokratiyanın pozulması deyilmi?! Axı xalq onlara inanmırsa, onlar hakimiyyətə gələ bilmirsə, seçki 6 ay irəli çəkilsə yox, bir il də geri çəkilsə nəsə dəyişməyəcək. Qərbdə bunu yaxşı bilirlər, amma dəstəklədiyi qüvvələrin məğlubiyyətində hakimiyyəti günahlandırırlar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Deputatın vahid namizəd təklifinə partiyalardan reaksiya

## Partiya təmsilçilərinə görə, bu ideya hər seçkidə aktuallaşsa da, nəticə yoxdur


Tural Abbaslı


Araz Əlizadə

**"BAXCP artıq seçki platforması, hakimiyyətə və siyasi proseslərə münasibəti partiyanın mövqeyinə yaxın olan təşkilatlarla seçkilərdə iştirakla bağlı danışıqlar aparır. Yaxın 10 gün ərzində BAXCP-nin seçkilərə öz namizədi ilə gedəcəyi, yaxud başqa namizədi dəstəkləyəcəyi barədə qərarı elan olunacaq".**

Azpolitika-nın məlumatına görə, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, millət vəkili Qüdrət Həsənquliyev seçkiyə-qatılıb qatılmayacaqları haqda sualı cavablandırarkən belə deyib.

Bəs görəsən, seçkilərdə iştirak etməyə iddialı olan digər partiya rəhbərləri necə, siyasi partiyaların seçkilərə vahid namizədlə getməsində maraqlıdırlarmı?

**"Yeni Müsavat"ın sualını cavablandıran AĞ Partiyanın prezidentliyə namizədi Tural Abbaslı bildirdi ki, vahid namizəd məsələsi Heydər Əliyev hakimiyyətə gələndən bu yana müzakirə olunan, ancaq heç bir nəticə verməyən mübarizə metodudur:** "Hər dəfə seçki öncəsi bu məsələ gündəmə gətirilir və müxalifət partiyaları arasında didişmələr başlayır. Hətta elektorat parçalanmağa başlayır, müxalifət nümayəndələrinin bir-birinə ittihamları artır. Bu da seçici elektorata təsir edir, onlar da həvəsdən düşür. Mən ən azından indiki mərhələdə bu müzakirələri faydalı hesab eləmirəm. Çünki bu gün müxalifətdə təmsil olunan partiyaların rəhbərlərinin 90 faizi uzun illərdir ki, müxalifətdədirlər. Onlar bilirlər ki, vahid namizəd məsələsinin müzakirəsinə nə vaxtdan başlamaq lazım idi, diskussiyalar hansı zəmində getməli idi. Əgər bu günə qədər heç bir tərəfdən real istək gəlməyibsə, deməli, bunun baş tutması real deyil".

**Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə də qeyd etdi ki, radikal müxalifətin fəaliyyəti nəticəsində müxalifət artıq yox dərəcəsinə gəlib çatıb:** "Vahid namizəd məsələsi çoxdan çeynənmiş tüpürülmüş, sonra yenidən götürülüb çeynənmiş, tüpürülmüş saqqızdır. Hazırda müxalifətdə olan bu insanlar vaxtilə Azərbaycan Xalq Cəbhəsi Hərəkatının üzvləri idilər və öz liderlərinin şəxsi ambisiyalarına görə ayrıldılar. Liderləri öz şəxsi ambisiyalarının təmin edə bilməyibsə, necə ola bilər ki, onlar birləşsinlər. Ötən bu dövrdə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətdən gedəndən sonra neçə-neçə birlik yaranıb, lakin bir nəticə verməyib. 2002-ci ildə 22 partiya birləşib parlament seçkilərini boykot etməklə bağlı qərar qəbul etdi. Lakin sonradan seçkiyə getdilər. Ondan sonra biz heç bir bloka qatılmadıq. Sonuncu dəfə "Yeni Siyasət" blokuna qatıldıq ki, bu da partiyaların deyil, şəxsiyyətlərin bloku idi. Onda da mən gördüm ki, Azərbaycan siyasətçilərində birləşmə, bloklaşma mədəniyyəti yoxdur".

**AXCP-dən ayrılan qanadın rəhbəri Razi Nurullayev də "Yeni Müsavat"a bildirdi ki, hazırda müxalifətin vahid namizədə ehtiyacı var və lazım gəlsə, partiyası bu məsələni müzakirə edə bilər:** "Eyni dəyərləri, eyni şüarları, oxşar proqramları olan və Azərbaycanın gələcəyini oxşar görən partiyaların inteqrasiya etməsində və seçkiyə vahid namizədlə qatılmasında da problem yoxdur, bəlkə də buna ehtiyac var. Ancaq bu həmin partiyaların ortaq dəyərlərinin olub-olmamasından, onların Azərbaycanın gələcəyini necə görməsindən asılı olan məsələdir. Biz seçkilərə qatılmaqda israrlıyıq, artıq mənim namizədliyim irəli sürülüb. Əgər bizdən daha şanslı bir namizəd olarsa, dediyimiz dəyərləri bölüşərsə, təbii ki, vahid namizəd məsələsi müzakirə oluna bilər. Biz tam olaraq qapını bağlamamışıq".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

**Milli Məclisin yaz sessiyasının ilk iclasında deputat, Mətbuat Şurasının sədri Əflatun Amaşov media cameəsi üçün çox mühüm bir təşəbbüslə çıxış etdi. O, prezident İlham Əliyevin 2018-ci ili Azərbaycanda "Cümhuriyyət ili" elan etdiyini xatırladaraq, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində mətbuat muzeyinin yaradılmasını zəruri saydığını dedi.**






# "Bank Standard"ın tərk etdiyi tarixi bina - Mətbuat Sarayı...

## "Yeni Müsavat" Mətbuat Şurası sədrinin təklifi əsasında araşdırma apardı; Bakı Şəhər İcra Hakimiyyətində olan, binanın qonşuluğunda çalışanlar nələr danışdılar?..

Ə.Amaşovun həmin çıxışında dediyi kimi, Xalq Cümhuriyyəti mövcud olduğu 23 ay ərzində bir sıra sahələrə olduğu kimi, media sahəsində də ciddi addımlar atıb. Cümhuriyyət hökuməti mətbuat üçün nəşriyyat evini tikməyi planlaşdırsa da, işğal bunun reallaşmasına imkan verməyib. Ancaq Cümhuriyyət qurucularının bu ideyası Sovet Azərbaycanında həyata keçirilib. Belə ki, 1933-cü ildə Bakıda Mətbuat Sarayı adlandırılan bina tikilərək istifadəyə verilib. Həmin bina indiki Azərbaycan prospekti-4 ünvanında (Keçmiş "Bazarnı" və Hüsü Hacıyev küçələri - E.P.) yerləşir. Mətbuat Şurasının sədri həmin binanın Mədəniyyət və Turizm Nazirliyinin reyestrində memarlıq abidəsi kimi qeydiyyata alındığını parlamentdə dilə gətirdi. Bildirdi ki, uzun müddət "Azərnəşr"in fəaliyyət göstərdiyi bu bina 1995-ci ildə "Bank Standard" Kommersiya Bankına baş ofis kimi verilib.

Ə.Amaşovun təklifi media nümayəndələri tərəfindən rəğbətlə qarşılanıb. Biz də "Yeni Müsavat" olaraq MŞ sədrinin dedikləri ilə əlaqədar araşdırmalar aparmağa qərar verdik. Məlum olduğu kimi, "Bank Standard" hələ ötən ildən fəaliyyətini dayandırıb. Bu mənada həmin binanın indi hansı məqsədlər üçün istifadə edildiyi maraqlı idi. Sözügedən ünvana baş çəkərkən gördük ki, üzərində "Bank-Standard"a aid reklam lövhələri olduğu kimi qalsa da, qapılar bağlıdır. Gözəl görünüşə malik tarixi bina kənardan belə arkitekturasına görə göz oxşayır. Ancaq təəssüf ki, üzərində binanın tarixi abidə olduğunu və dövlət tərəfindən qorunduğunu bildirən lövhə belə vurulmayıb.

**Lakin bağlı qapıların üzərinə Əmanətlərin Sığortalanması Fondu QSC-nin bank əmanətçiləri üçün məlumatlar olan elanlar var. Binanın mühafizəçisi Seymur Məmmədov bizə bildirdi ki, 15 mərtəbəli binada yerləşən bank ofisi 1 oktyabr 2016-cı il tarixdən fəaliyyətini dayandırıb:** "Artıq bankın bu binaya heç bir aidiyyəti yoxdur. Biz, sadəcə, binanı mühafizə edirik. Burada bankın hər hansı əmlakı qalmayıb, yalnız binaya məxsus avadanlıqlardır. Bura hazırda Əmanətlərin Sığortalanması Fondunun ixtiyarındadır".

**Mühafizəçi dedi ki, boş olsa da, bu müddətdə binadan icarə məqsədilə istifadə etmək üçün kimsə müraciət etməyib:** "Ancaq bank əmanətçiləri müraciət edir. Onları da indiki ünvana yönəldirik". S.Məmmədov binanın aşağı hissəsindəki kafe-restoranın bu binaya aid olub-olmadığı barədə bir söz deyə bilmədi.

**Ətrafdakı obyektlərdə çalışanlarla, həmçinin şəhər sakinləri ilə söhbət edib onların bu bina ilə bağlı məlumatlı olub-olmadıqlarını, səslənən təklifə münasibətlərini öyrənmək istədik. Binaya bitişik mağazada satıcı işləyən Günay xanım bildirdi ki, təşəbbüsü alqışlayır:** "Bilirik ki, bu il Cümhuriyyətimizin 100 illiyidir. Odur ki, bu binanın mətbuat muzeyi kimi fəaliyyət göstərməsi çox yaxşı olar".







**Qarşı tərəfdəki qəzet köşkünün satıcısı Sevinc xanım isə bu binanın yaxınlığında böyüyüb:** "Mən gözümü açandan bu binanı görmüşəm. Tarixi binadır və əvvəlki görkəmində qalıb. Düzdür, deyəsən, damına dəyişiklik ediblər, əlavə tikili tikiblər. Məncə, əvvəl o hissə yox idi". **Xanım satıcı dedi ki, binanın mətbuatın ixtiyarına verilməsinə inanmır:** "Düzdür, burada vaxtilə nəşriyyat fəaliyyət göstərib. Sonra banka verildi. Nə bilim vallah? Bu binanı yenidən mətbuata qaytararlarmı? Həm də mətbuata uyğun formaya gətirmək üçün xeyli xərc lazım olar. Amma əvvəlki sahiblərinə, mətbuata qaytarılsa, çox yaxşı olar. Mən 15 ildir burada işləyirəm, həyat yoldaşıma köməklik edirəm, ona görə də bu bina barədə çox məlumatlı deyiləm. Amma həyat yoldaşım 40 ildir qəzet satır, bu binada çalışan nəşriyyatın rəhbərliyini də yaxşı tanıyırdı".

**Yaxınlıqdan keçən Murad Rəsulov isə dedi ki, bu barədə səslənən təklifi müdafiə edir:** "Mən bu təklifə "hə" deyirəm. Niyə də olmasın?"

**Tarixi binaya bitişik ünvanda fəaliyyət göstərən "Nobooy Knows" restoranında barmen işləyən Fərid Sadıqov muzey təşəbbüsünə orijinal münasibət bildirdi:** "Burada muzey yaratsalar, həm xalqımız üçün faydalı iş olar, həm də bizimçün də yaxşı olar. Çünki buralarda həyat qaynayar. Artıq xeyli vaxtdır bank burada fəaliyyətini dayandırıb, bizim müştərilərimiz də azalıb".

Binanın Mədəniyyət və Turizm Nazirliyinin reyestrində memarlıq abidəsi kimi qeydiyyata alındığını nəzərə alıb nazirliyin səslənən təklifə münasibətini öyrənmək istədik. Lakin bizə bildirildi ki, bina Mədəniyyət və Turizm Nazirliyinin reyestrində memarlıq abidəsi kimi qeydiyyata alınsa da, digər suallar onlara aid deyil.

Belə olduqda Bakı Şəhər İcra Hakimiyyətinə yollandıq. Mühafizəçiyə icra hakimiyyətinin başçısı Hacıbala Abutalıbovla görüşmək istədiyimizi deyəndə məsləhət gördülər ki, qəbul otağına yaxınlaşaq. Qəbul otağının müdiri Tahir Məsimov isə Mətbuat Şurası sədrinin təşəbbüsü və ümumiyyətlə, Azərbaycan-4 ünvanında yerləşən binanın taleyi ilə bağlı suallara cavab vermək iqtidarında deyil. Bununla bağlı mətbuat xidmətinə müraciət etməyi məsləhət gördü. Lakin mətbuat xidməti, həmişəki kimi, telefonun dəstəyini qaldırmadı.

*****

**Jurnalistikamızın ağsaqqal nümayəndəsi, professor Şirməmməd Hüseynov səslənən təkliflə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşdü:** "Yaşasın Əflatun Amaşov ki, heç olmasa bu məsələni qoyur. Bakıda "Əkinçi" qəzeti nəşr olunub. Soruşuram, muzeyi varmı? Bakıda ilk gündəlik "Həyat" qəzeti çıxıb, muzeyi var? Mən demək istəyirəm ki, o muzeylərə də ehtiyac var. Təbii ki, ehtiyac var, mətbuat muzeyi də lazımdır. Amma indi 100 illikdir. Soruşuram səndən, Azərbaycan Xalq Cümhuriyyəti muzeyi varmı? Şərqdə və İslam aləmində ilk demokratik respublika! Birinci növbədə o məsələdən başlamaq lazımdır. Bir milləti tarixən dünyada tanıdan dövlətidir".

**Cümhuriyyət qurucularının bir çoxunun elə həm də jurnalist olduqlarını, məqalələrlə çıxış etdiklərini xatırladıb onlara da bu muzeydə yer ayrılmasının mümkün olub-olmadığını soruşduqda, Şirməmməd müəllim maraqlı cavab verdi:** "Cümhuriyyət yaradanları jurnalist hesab edib, onları qabağa çəkmək xırdalıqdır. Lazımlı şeylər çoxdur. Amma insan faktoru öndə olmalıdır. Prezident İlham Əliyev də dəfələrlə deyib ki, insan kapitalı bizimçün önəmlidir".

**Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin müəllimi, professor Cahangir Məmmədli "Eurasia Diary"yə açıqlamasında Əflatun Amaşovun təklifini yüksək qiymətləndirdiyini bildirib:** "Əflatun Amaşov əslində tarixi fakta toxunub. Çünki onun təklif etdiyi bina vaxtilə Mətbuat Sarayı olub. İndi onun öz statusunun geri qaytarılması gündəmdədir. Jurnalistlərə, jurnalistikamızın tarixinə yaraşan bir yerdədir. Mən iki əlli ona razıyam və mətbuatda bunu hamımız təbliğ etməliyik".

**"525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin katibi, Rəşad Məcid də təkliflə bağlı fikirlərini bildirib.** "Əflatun Amaşovun təklifini mən də çox maraqla və xoş qarşıladım. Belə bir muzeyin yaradılmasına ehtiyac var. Həqiqətən də mətbuat muzeyinə yararlı ola biləcək tarixi bir binadır. Əgər elə bir ideya reallaşarsa bu həm də Azərbaycan mətbuatına çox böyük diqqət və qayğının göstəricisi olar" - R.Məcid deyib.

**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı da sözügedən təklifi çox müsbət qiymətləndirdiyini açıqladı. Onun sözlərinə görə, Azərbaycanda mətbuat tarixi muzeyinə çox böyük ehtiyac var. Akif Aşırlı mətbuat tarixi muzeyinin böyük tarixi məkanda açılmasına çox ciddi ehtiyacın olduğunu deyib:** "O ehtiyacı da Əflatun müəllim dilə gətirdi. Mən ona təşəkkür edirəm. Hesab edirəm ki, məkan da çox doğrudur. Ora vaxtilə Mətbuat Sarayı olub. Sonradan senzura kimi fəaliyyət göstərib. Hətta 90-cı illərdə orada müəyyən mətbuat orqanları fəaliyyət göstərirdi. Tarixi binadır. O, binada mətbuat tarixi muzeyi yaradılarsa, çox böyük bir iş olardı. Mən də üzərimə düşən nə vəzifə varsa onu icra etməyə hazıram"- deyə, baş redaktor əlavə edib.

Konstruktivizm üslubunda inşa edilmiş bu binanın tikintisinin tarixi də olduqca maraqlıdır. 1927-ci ildə Azərbaycan Dövlət Nəşriyyatının binası tikilməli idi. O zaman Sovet İttifaqında bu binanın tikintisi ilə bağlı memarlıq müsabiqəsi elan olundu. Nəticədə binanın tikintisi ilə bağlı elan olunan müsabiqəyə təqdim edilən 42 layihə arasında tanınmış gənc memar Semyon Peninin Uraldan göndərdiyi ideya müsbət qarşılanıb. Xatırladaq ki, bu müsabiqədə sovetlərdəki bütün məşhur memarlar iştirakçı olub. Bu binada nəşriyyat üçün zəruri olan bütün amillər nəzərə alınmışdı. 70-ci ildə konstruktivizm memarlıq abidələrinə həsr olunan kitabdakı siyahıda bu bina 18-ci ən yaxşı bina olub. Yeri gəlmişkən, S.Pen Kazan və Moskvada da eyni üslubda binaların layihələrini təqdim edib. Bakıdakı binada "Azərnəşr" yerləşdiyi kimi, Kazandakı bina "Nəşr evi", Moskvadakı isə "Tipoqrafiya klubu" olub. Çap işi ilə bağlı olan o biri binaların indiki taleyi barədə məlumatımız yoxdur. Lakin Bakıdakı keçmiş bank ofisinin - tarixi binanın ilkin sahiblərinə - mətbuata qaytarmaq üçün unikal şans yaranıb. Bu addım Cümhuriyyət ilində 143 yaşlı milli mətbuatımıza hədiyyə olmaqla yanaşı, 85 yaşlı tarixi abidənin öz sahiblərinə qaytarılması baxımından da çox faydalı olardı. Həmçinin bu, taleyini media ilə bağlamış əksər Cümhuriyyət qurucularının da ruhunu şad edərdi. Yeri gəlmişkən, dahi Üzeyir bəy Hacıbəyli elə Mətbuat Sarayının qonşuluğunda yaşayıb...

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ Elşad PASASOY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 31 (6920) 9 fevral 2018

# Putin üz döndərir, ABŞ qucaq açır...

**Azərbaycanda erkən prezident seçkisi barədə qərar hələ də işğalçı Ermənistanda müzakirə mövzusudur. Erməni təhlilçilər məsələyə ən müxtəlif prizmadan baxmağa və bu qərarın arxasındakı əsas məramı tutmağa çalışırlar.**



## Azərbaycanda prezident seçkisi Ermənistanı qarışdırır

### Düşmən ölkədə erkən seçki mövzusuna diqqət artır; **erməni nəşrindən xəbərdarlıq:** "Pauza olmayacaq, biz yenə təcrid ediləcək, böyük gəlirlərdən məhrum olunacağıq, seçkidən dərhal sonra isə Putin müharibə üçün Bakıya "dobro" verəcək"; Vaşinqtondan İrəvana reverans - ABŞ maliyyə naziri işğalçı ölkəyə müjdə verdi...

Ortaq rəy belədir ki, Azərbaycanda prezident seçkisinin 6 ay qabağa çəkilməsi Ermənistana yaxşı heç nə vəd eləmir, əksinə, Qarabağ zonasında müharibəni yaxınlaşdıra bilər. Səbəb belə göstərilir ki, apreldən sonra danışıqlarda pauza üçün artıq heç bir bəhanə qalmayacaq...

*****

"Əfsus ki, bizim yerli analitiklər Azərbaycandakı seçkilərin 6 ay qabağa çəkilməsi ilə bağlı tələm-tələsik nəticələr çıxarırlar - o cümlədən də iqtisadi planda. Ancaq biz etiraf eləsək də, eləməsək də, Azərbaycanda qlobal iqtisadi problemlər yoxdur. Bu harasıdır, üstəlik, təəssüflər olsun ki, Azərbaycanın iqtisadi inkişafı üçün olduqca ciddi perspektivi var. Və o ölkələr ki (Rusiya, İran - A.X.) onları biz uzun müddət sadiq müttəfiq sayırdıq, getdikcə daha çox Azərbaycanla əlaqələri inkişaf etdirməyə stavka edirlər".

**"Yeni Müsavat"ın məlumatına görə, bu barədə Armenianreport erməni portalında gedən məqalədə bildirilir.**

"Yekun etibarilə indi eşidirik ki, Tehran, Bakı və Moskva üçtərəfli görüş keçirib və onun gedişində Astara-Moskva sərnişin qatarının işə düşməsi haqda danışılır. Bundan əlavə, martda Azərbaycan və İran prezidentlərinin iştirakı ilə Astara (İran) - Astara (Azərbaycan) dəmiryolunun açılış mərasimi olacaq, həmçinin Astara-Rəşt dəmir yolunun tikintisinin təməli qoyulacaq. Bu layihə üçün Azərbaycan İrana yarım milyard dollar kredit ayırıb. İran tərəfi, ümumiyyətlə, bəyan edir ki, Qara dənizi Fars körfəzi ilə birləşdirəcək "Cənub-Şimal" nəqliyyat nəhəng əhəmiyyət daşıyır. Həmin dəhliz vasitəsilə yüklər Polşa, Ukrayna və Gürcüstandan keçəcək. Biz yenə də təcrid ediləcək, böyük gəlirlərdən məhrum olacağıq. Azərbaycan isə təkcə maliyyə yox, həm də siyasi dividentlər qazanacaq. Bütün bunların fonunda iddia eləmək ki, Azərbaycan ciddi iqtisadi problemlər yaşayır, ifrat sadəlövhlük olardı", - deyə nəşr qeyd edir.

**Məqalədə daha sonra deyilir:** "Biz nə qədər inanmaq istəsək belə, rəsmi Bakıya real siyasi təzyiqlər də yoxdur. Əksinə, Avropada Azərbaycanın enerji daşıyıcılarının ixracatçısı kimi mühüm ölkə olmasından tez-tez və daha ucadan danışmağa başlayıblar. Bu xüsusda İlham Əliyevin Davos İqtisadi Forumundakı görüşlərin səviyyəsini yada salmaq yetər. Üstəgəl, İlham Əliyev Vladimir Putinlə də isti münasibətlərə malikdir. Rusiya və Azərbaycanın neft-qaz bazarında rəqib olmaları nəzərə alınarsa, bu, paradoksal görünə bilər. Di gəl, hər şey biz deyən kimidir. Şübhə edənlərə bunu da xatırlatmaq istərdim ki, Rusiya telekanallarında Azərbaycanın ünvanına bircə tənqid belə olmayıb. Bu ölkəni heç kim aşağılamayıb. Ermənistan isə tez-tez təhqirlərə və hücumlara məruz qalır. Kremin baş ruporu Vladimir Solovyovun, Aleksandr Proxanov və Aleksandr Duqinin Bakı səfərlərini də yada salma lazımdır - hansılar ki, daima bizim ölkə tərəfindən "ərazi güzəştləri"ndən danışırlar (dırnaqlar bizimdir - A.X.) Bütün bunlar Kremlin açıq-aşkar Serj Sərkisyandan narazı olduğuna dəlalət edir".

**Aprelin 9-da Sərkisyanın prezident səlahiyyətlərinin bitəcəyini xatırladan nəşr sonda yenidən Azərbaycandakı erkən prezident seçki mövzusuna qayıdaraq yazır:** "Əgər Azərbaycanda seçki qabağa çəkilməsəydi, danışıqlarda pauza az qala, bir il uzanacaqdı. Amma artıq olmayacaq. Bu, o anlanma gəlir ki, Bakı pauzanın yaranmasına imkan verməyəcək - özü də yalnız öz ölkəsində seçkiləri qabağa çəkməklə yox. Məsələ ondadır ki, martın 18-də Rusiyada da prezident seçkisi olacaq. Onun nəticəsinə heç kim şübhə eləmir. Amma real təhlükə var ki, Putin prezident seçiləndən dərhal sonra Qarabağda eskalasiya artacaq, Rusiya müharibə üçün Bakıya "dobro" verəcək və hətta ola bilsin, onu dəstəkləsin də. Yekun etibarilə təkcə Serj Sərksyanın deyil, bütövlükdə "Qarabağ klanı"nın siyasi səhnədən getməsi labüd olacaq".

*****

Maraqlıdır ki, bu qəbildən ehtimallar fonunda ATƏT-in Minsk Qrupu həmsədrlərindən biri olan ABŞ işğalçı Ermənistana xoşməramlı reverans edib. Belə ki, ölkənin maliyyə naziri Stiv Mnuçin bəyan edib ki, Vaşinqton Ermənistana qarşı ikiqat vergi ödənməsi haqda sazişi ləğv etməyə hazırlaşır. "Yeni Müsavat"ın "Amerikanın səsi" radiosunun erməni redaksiyasına istinadən verdiyi xəbərə görə, bu barədə nazir ötən çərşənbə günü Nümayəndələr Palatasının Maliyyə xidmətləri komitəsində çıxış zamanı bildirib.

"Yeni saziş Amerika-erməni investorları və iş adamlarına işgüzar əlaqələri gücləndirmək üçün bütün maneələri götürən hüququ baza yaradacaq. Bu da ABŞ-la Ermənistan arasında iqtisadi əlaqələrin inkişafına təkan verəcək. Eyni zamanda erməni və amerikan xalqlarının dostluğu möhkəmlənəcək, Ermənistanı Qərbə daha yaxın edəcək. İrəvana strateji seçim və müstəqillik üçün daha böyük imkanlar açacaq", - deyə maliyyə naziri əlavə edib.

*****

Ancaq Rusiyaya qarşı sanksiyaları get-gedə daha da sərtləşdirən ABŞ-ın forpost Ermənistana, Sərkisyan rejiminə bu "yaxşılığı", faktiki, ona qucaq açmaq istəyi, habelə ABŞ maliyyə nazirinin yuxarıdakı mesaj-açıqlaması Amerikaya qarşı qəzəbli olan Kremlin nəzərindən çətin ki, qaçsın. Hər necə olmasa, ABŞ uzaqda, Rusiya isə lap yaxında, hətta Ermənistanın içindədir.

Odur ki, son illər "iki stulda" oturmağa çalışan Sərkisyan rejimin sevinməsi üçün əsas görünmür. Üstəlik, erməni ekspertlərinin də etiraf elədikləri kimi, Rusiyaya qarşı iqtisadi-maliyyə və hərbi xarakterli sanksiyaların "küləyi" Ermənistanı da vuracaq. Özü də yetərincə güclü şəkildə...

❑ **"Yeni Müsavat",**
❑ **analitik xidmət**

# Boykot qərarında gizli razılaşma

## **Politoloq:** "Seçkidə iştirakdan imtina edən qüvvələr öz elektoratları qarşısında son şanslarını da itirir"

**Aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkisində iştirak edib-etməmək məsələsində müxalif siyasi qüvvələr arasında fikir ayrılığının olduğu məlumdur.**

Əksəriyyət seçkidə iştirak tərəfdarı olduğunu nümayiş etdirsə də, seçkini boykot qərarı verənlər və boykot çağırışı edənlər də var. Milli Şuranın, əslində AXCP-nin boykot qərarından sonra belə bir qərar dünən Liberal Partiya tərəfindən elan edilib. Partiyanın sədri Əvəz Temirxan bəyan edib ki, liderləri Lalə Şövkət Hacıyeva və partiyası növbədənkənar prezident seçkisinə qatılmayacaq: "Qəti fikrimizdir. Prezident seçkilərinə partiyadan da kimsə qatılmayacaq. Bu addım səbəbsiz deyil. Mütləq səbəb var. Yoxsa seçkilər bu tarixə salınmazdı".

Xatırladaq ki, 2013-cü il prezident seçkisində ümumilikdə 20 nəfər namizədliyini irəli sürüb. Onlardan 10 namizədin-İlham Əliyev (YAP), İqbal Ağazadə (Ümid Partiyası), Araz Əlizadə (ASDP), Qüdrət Həsənquliyev (BAXCP), Hafiz Hacıyev (MMP), Zahid Oruc (müstəqil), Fərəc Quliyev (MDHP), İlyas İsmayılov (Ədalət Partiyası), Cəmil Həsənli (Milli Şura) və Sərdar Cəlaloğlu (ADP) namizədliyi qeydə alınmışdı. Digər 10 nəfərin- Əhməd Oruc (Azadlıq Partiyası), İlqar Məmmədov (müstəqil), Fuad Əliyev (ALDP), Əli Əliyev (VİP), Ərəstun Oruclu (müstəqil), İsmayıl Yusifov (müstəqil), Elşən Həsənov (müstəqil), Qüdrət İsaqov (müstəqil), İlqar Məmmədov (REAL) və Rauf Quliyevin (müstəqil) namizədliyi isə qeydə alınmamışdı.



**2013-cü ildə keçirilən prezident seçkisini boykot edən siyasi təşkilatlar olmamışdı. Budəfəki seçkilərdə boykot və ya seçkidə iştirak etməmək mövqeyində olanların ortaya çıxmasını şərh edən politoloq Natiq Miri "Yeni Müsavat"a bildirdi ki, seçkidə iştirakdan imtina və boykot qərarı verən qüvvələr öz elektoratları qarşısında son şanslarını da itirəcəklər:** "İnsanlar onlara haqlı olaraq sual edəcək ki, hər gün mübarizədən dəm vurduğunuz nədir, mübarizə zamanı yetişəndə kənara çəkilməyiniz nədir? Elektorat bu cür ziddiyyətli davranış nümayiş etdirən siyasi qüvvələrdən haqlı olaraq üz çevirəcək. Siyasi partiya seçkilərdə iştirak etmək üçün vardır. Çünki hakimiyyətə gəlməyin yeganə qanuni yolu seçkilərdir. Bir partiya hətta ən ağır şərtlər altında olsa da belə, seçkilərdən imtina edirsə, siyasi partiya funksiyasını itirmiş deməkdir. Məsələnin başqa bir tərəfi odur ki, Azərbaycanda seçkini boykot etmək taktikasının çox uğursuz, heç bir müsbət effekti olmayan taktika olduğu artıq sübuta yetib. Bunu bilə-bilə yenə də seçkini boykot qərarı verirlərsə, bu, qaranlıq məqamlardan, ortada hakimiyyətin hansısa dairəsi ilə razılaşmanın olduğundan xəbər verir. Belə hesab edirəm ki, əvvəllər olduğu kimi yenə də hakimiyyətdəki müəyyən dairələrlə bazarlığa gedilir. Azərbaycanda bir sıra siyasi qüvvələr və liderlər üçün seçkilər həmişə pul qazanmaq üçün bazarlıq fürsəti olub. İndi də məhz həmin qüvvələr ənənəvi taktikanı seçdilər. Onlar üçün seçicini aldatmaq və seçkidən pul qazanmaq adi həyat tərzinə çevrilib. Belə görünür ki, həmin qüvvələr və şəxsləri seçicinin, elektoratın mövqeyi, onların verdikləri qərarlara görə necə yanaşacağı elə də maraqlandırmır. Amma unutmamalıdırlar ki, bu dəfə onlar üçün elektorat qarşısında son sınaq idi. Seçkinin demokratik keçməyəcəyi ehtimalı nə qədər yüksək olsa belə, müxalif siyasi qüvvələr ən azından xalqla təmas üçün, öz ideyalarını xalqa çatdırmaq, aktivlik yaratmaq naminə seçkidə iştirak etməlidirlər. Normal məntiq və siyasətin sadə düsturu bunu diktə edir. Seçkinin verdiyi tribunadan imtina etmək özü-özünü təcrid etməkdir. Özünütəcridə isə o qüvvələr yalnız böyük pullar qarşılığında gedə bilərdilər. Burada qaranlıq məqamlar mövcuddur. Seçkinin növbədənkənar keçirilməsi, indiyə qədər seçkilərin demokratik olmaması seçkini boykot etməyə səbəb deyil, əmin olun ki, bu, sadəcə, bəhanədir. Alt qatda qaranlıq məqamlar, gizli razılaşmalar var".

Politoloqun fikrincə, hakimiyyətə alternativ güc olduqlarını seçkidə birgə iştirak etməklə dünyaya və xalqa nümayiş etdirməyən siyasi qüvvələr siyasi iflaslarını yaxınlaşdıracaqlar. İnsanlar artıq onlara inamı tamamilə itirəcəklər. Həmin qüvvələrin boykotdan qazancı həm bu, həm də pul ola bilər.

❑ **Etibar SEYİDAĞA,**
❑ **"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 31 (6920) 9 fevral 2018



# Beş uşağın pulu

Zamin HACI
zaminhaci@mail.ru

"Ölürəm, mən xəstənin
Dərdinə dərman eləyin;
Aparın Ələsgəri,
Payında qurban eləyin;
Bimürvət, bəlkə baxa,
Deyə: "Bu qurbandı, nədi?!"

(Aşıq Ələsgər)

**İnsan hüquqlarının aliliyi, humanizm prinsipləri bizdə dövlətin təməlidir. Bu yaxında Konstitusiya Məhkəməsi Ali Məhkəmənin bağ sahəsinin icarə müqaviləsi ilə bağlı bir qərarını ləğv etdi. Üstəlik, bu haqda mediaya açıqlama verdilər. Özüm oxudum. Düşmən gözü çıxardan iri hərflərlə yazmışdılar: "Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz". Allah, özün saxla. Gör vətəndaşın hüquqları necə möhkəm qorunur.**

İlk növbədə bu qərarın adına diqqət etməliyik: bağ sahəsinə bağlı qərar. Yəni hardan baxsan burada bağlı bir iş görürsən. Ermənistanda isə heç bağ yoxdur. Ölkə boşalır. Biz Aşıq Ələsgərin doğum tarixini niyə qızğın müzakirə edirik? Çünki aşığın yurdu, qəbri olan Göyçə hazırda əlimizdədir. Bu da araşdırmalara müvafiq imkanlar yaradır. Əgər Aşıq Ələsgərin dəqiq neçənci ildə doğulduğunu tapsaq, Azərbaycan tarixinin ən böyük problemi həll olunacaqdır.

İkinci faktor elə bu tarixiliklə bağlıdır. Bayaq Konstitusiya Məhkəməsinin qərarının mediaya açıqlanmasını bəlkə boşuna vurğuladığımı zənn edirsiniz? Ay hay. Bizdə mənasız yerə heç vergül də qoyulmur. Məhkəmə və başqa dövlət orqanlarımız həmişə öz qərarlarını cəmiyyətə açırlar. Media azadlığı bizdə önəmlidir. Bunun isə səbəbi odur ki, media sözünün özü kök, etimologiya baxımından Azərbaycana aiddir! Midiya dövlətimizin adından gəlir. Manna dövlətinə aid də nəzəriyyələrim var, qalsın başqa vaxta. Yaqub müəllimlə danışmışam, elmi dərəcəmi gözləyirəm. Biz gərək tariximizi unutmayaq. Tarix maşında qoyulan güzgü kimidir, onda geriyə baxıb irəli hərəkət edirsən.

Müxalifətçilərdən birinin qohumları ölmüşdü, indi hökumət qərar verib ki, onu türmədən 3 günlüyə buraxsın. Gedib 40 mərasimində iştirak edəcəkdir. Bu da daha bir humanizm təntənəsidir. Hələ onu yazmıram ki, müxalifətçinin vəkili bu temada açıqlama vermişdir. Deməli, onun vəkili də vardır! Heç Almaniyada müxalifətçini tutanda ona vəkil ayrılırmı? Biz bunu yüksək qiymətləndiririk. Çünki istəsələr o biri vəkillər kimi bunun da cibinə kağızdan-zaddan atıb kollegiyanın qərarıyla qovardılar. Amma qalır! İlqar Məmmədovun vəkillərinin həbs edilməməsi, həmçinin yüksək ədalət göstəricilərindən biridir. Guya İsmayıllı hadisələrini həmin vəkillərin belinə şəlləmək çox çətin olardı? Hətta orda bir zəhləmgetmiş vəkil var, vaxtilə AXC-Müsavat hökumətinə impiçment qoymaq, hakimiyyəti yıxmaq projesinin kağız-kuğuzlarını şəxsən hazırlayıbdır. Yəni, sözün əsl mənasında qoduqluğa basılası adamdır. Ancaq dövlətimiz basmır. Çünki humanistdir.

5 dənə uşağı olan ailələrə dövlət qayğısının miqdarını bilirsinizmi? Keçən həftə Ailə, Qadın və Uşaq Problemləri Komitəsi *(elə bu komitənin adı özü dövlət qayğısının bariz örnəyidir - başqa ölkələrdə kişilərin problemlərini həll edirlər)* açıqladı. Deyir əgər sənin 5 uşağın olsa, hamısı sağ-salamat qalsa, axırıncı uşaq 1 yaşına çatana qədər hər uşağın alacağı müavinətin dəyəri 30 manatdır! Fantastikadır. Toplam olaraq ayda 150 manatı verirlər sənə, apar 5 uşağı bəy kefində saxla. Səmərəli istifadə eləsən, düzgün xərcləsən hətta uşaqların hamısına yelsəbet almaq mümkündür. Xəyali İsmayıllı yelsəbet zavodundan. Bəzən yeməkdən ümid, yelsəbetin arzusu isə özündən yaxşıdır. Uşaqlığımdan bilirəm.

İndi gəlin görək dağılan Almaniyada uşaq pulu nə qədərdir? Gülünc rəqəmdir. Ayda 192 avro. 2-ci və 3-cü uşaqlara 198 avro, 4-dən sonra isə 223 avro. Toplasan 5 uşaqlı alman ailəsinin aylıq uşaq pulu 1034 avro edir. Manata çevirəndə 2154 manat. Üstəlik, almanlar bu pulu 25 yaşa qədər verir. Dəlidirlər də. Görün orda uşaqlar necə gec inkişaf edir! Bizdə isə o yaşda əsgərlikdən qayıdıb dövlət quruculuğu ilə məşğul olursan.

# Azərbaycanda prezident seçkisi - media və cəmiyyət canlandı

## "Yeni Müsavat"ın canlı yayımında seçki debatı keçirildi



**11 aprelə təyin olunan prezident seçkiləri artıq Azərbaycanın siyasi həyatında canlanmalara, siyasi düşərgələrin, o cümlədən də medianın hərəkətə gəlməsinə səbəb olub.**

*Biz də bu aktual mövzunu sizlərin iştirakı ilə müzakirə etmək qərarına gəldik. Bunun üçün ölkənin iki tanınan siyasi xadimini "Yeni Müsavat" qəzetinin redaksiyasına dəvət etdik. Millət vəkil, Ana Vətən Partiyasının rəhbəri Fəzail Ağamalı, VİP sədri, prezidentliyə iddiaçı Əli Əliyev qonağımız oldu.*

*Budəfəki siyasi debatın öncəkilərdən fərqi isə onun "Yeni Müsavat"ın facebook səhifəsi üzərindən canlı yayımlanması oldu. Oxucularımızın suallarının müşayiəti ilə saat yarım boyunca canlı davam edən debatda bir-birindən fərqli suallar, mübahisə dolu fikirlər və arqumentlər səsləndirildi.*

*"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlunun moderatorluğu ilə keçirilən debatda oxucuların suallarını onlayn qaydada əməkdaşımız Sevinc Telmanqızı qonaqlara çatdırdı və ilginc bir debat ərsəyə gəldi. "Yeni Müsavat" sizə söhbətin yazılı mətnini, musavat.com isə onun video versiyasını təqdim edir.*

***Debat zamanı qonaqlarımızı öncə R.Arifoğlu salamladı:***

***- Artıq Azərbaycanın həyatına prezident seçkisi faktoru daxil olub. Gündəmin bir nömrəli məsələsidir. Sizinlə, eyni zamanda sosial şəbəkə istifadəçiləri ilə bərabər bu mövzunu müzakirə etmək istədik... Fəzail müəllim, bu mövzuya girişi sizdən başlayaq. Artıq bu məsələ müzakirə olunur ki, daha öncədən oktyabr ayına təyin olunan prezident seçkiləri aprel ayına keçirildi, ölkənin həyatında bir canlanma baş verdi və çoxları bunu sensasiya kimi qəbul etdi, bir çoxları isə bunu tərifləyərək, belə olmalı olduğunu dedi. Amma tənqid edənlər də var. Tənqid edənlərdən biri də müxalifət düşərgəsinin təmsilçisi Əli Əliyevdir. İndi bunu müzakirə edək: seçkilərin önə çəkilməsi Azərbaycan üçün nə deməkdir və siz bu məsələyə hansı mövqedən yanaşırsız?***

***F.Ağamalı:***

- Mən sizinlə tamamilə şərikəm ki, Azərbaycan bir ölkə və xalq olaraq son dərəcə bir mühüm tarixi mərhələyə qədəm qoydu. Bu tarixi mərhələnin qarşıya qoymuş olduğu vəzifə prezident seçkilərinin Azərbaycanda keçirilməsidir. Təbii ki, biz 2018-ci ilin prezident seçkiləri ili olacağını düşünürdük. Hər zaman oktyabr ayında prezident seçkiləri keçirilirdi, 5 il tamam olandan sonra həmin aya salınırdı. Bir daha namizədlər özünü bu seçkilərdə sınayır, xalqın etimadını qazanan dövlət başçısı statusunu qazanır, beləliklə ölkədə mühüm bir mərhələ keçirilirdi. Amma indi ölkə prezidentinin sərəncamı ilə seçkilər oktyabr ayından aprelə keçirildi. Bu, zaman məsələsidir, onun üzərində böyük mübahisələr aparmaq, böyük gedişlər etməyə ehtiyac yoxdur. Bu müzakirə mahiyyətə təsir edən bir şey deyil. Mahiyyət aydındır ki, Azərbaycan xalqı 2018-ci ildə özünün prezidentini seçməlidir. Əminəm ki, Azərbaycan xalqının iradəsi ilə bu seçkilər keçiriləcək və prezident adını qazanan şəxs növbəti 7 il ərzində qarşıya qoyulan vəzifələri həyata keçirəcək. Müxtəlif yanaşmalar var aprel ayına keçirmə ilə bağlı. Təbii ki, Prezident Aparatı ictimai-siyasi şöbəsinin rəhbəri Əli Həsənov məsələyə rəsmi mövqeyini bildirdi: nə üçün ölkə prezidenti bu sərəncamı imzaladı? Əli Həsənov bunu arqumentləşdirdi. Mən düşünürəm ki, Azərbaycanın bütövlükdə taleyində təkcə dünyada baş vermiş olan yox, regionda, qonşu ölkələrdə baş verən proseslər də öz təsirini göstərdi. Bu, tamamilə normal bir prosesdir. Bütün ölkələr bu cür təsirlərin altındadır və heç bir ölkə təcrid olunmuş deyil. Nəzərə alaq ki, ABŞ-ın Rusiyaya qarşı təhdidləri kifayət qədər ardıcıl və sistemli xarakter daşımaqdadır. Artıq 2018-ci ildən başlanmış olan bu proses Rusiya-Amerika münasibətlərində nələri yaradacaq, hansı kataklizmalara səbəb olacaq, buna birmənalı cavab vermək çətindir. Çünki Putin də kifayət qədər sərt və iradəli görünür. Amerika da super dövlət kimi geri çəkilmək fikrində deyil. Eyni təpki İrana qarşıdır. Obama dövründə İranla Amerika arasındakı münasibətlər müəyyən qədər yumşalsa da, Tramp dövründə münasibətlər fərqli müstəviyə keçib, İrana qarşı təzyiqlər davam edir, İranın daxilində də müəyyən proseslər gedir. Belə olan halda iki qonşu ölkədə bu proseslər gedirsə, həmin proseslərin Azərbaycana da təsiri mümkündür. Bunun üçün bir imkan daxilində Azərbaycan xalqı prezident seçkilərini keçirib, növbəti aylar üçün Azərbaycan prezidentinin rəhbərliyi altında bu və ya digər təhdidlərə, təsirlərə qarşı öz müqavimətini ortaya qoymalıdır. Bu, birinci vacib, əhəmiyyətli səbəbdir. Digər tərəfdən, Azərbaycanın Dağlıq Qarabağ problemi var. Unutmayaq ki, Ermənistan zərrə qədər yaranmış boşluqdan istifadə edib, Azərbaycana qarşı işğalçılıq siyasətini reallaşdırıb. Surət Hüseynov 1993-cü ildə qiyam qaldırandan və Azərbaycanda siyasi böhran ciddi xarakter aldıqdan sonra Azərbaycan torpaqları Ermənistan tərəfindən daha sürətli şəkildə işğal olunmağa başladı. Aprel ayında Ermənistanda yeni hakimiyyət formalaşır, özlərinin müəyyənləşdirmiş olduğu kursa uyğun olaraq Azərbaycanla danışıqlara, ya da Azərbaycana qarşı təxribatlara özlərinin münasibətlərini göstərəcəklər. Azərbaycan isə faktiki olaraq bütün diqqətini oktyabr ayına yönəldirsə, bu potensial prezident seçkilərinə yönəldiyi halda, bu tərəfdən Ermənistanla danışıqların nə dərəcədə intensiv xarakter daşıyacağı sual doğurur.



***R.Arifoğlu:***

***- Yəni siz bu məsələdə beynəlxalq faktor və Qarabağ məsələsi üzərində dayanırsız. Burda Ermənistanla münasibətlər məsələsi və Ermənistandakı mövcud dəyişim - seçkilər də rol oynayır deyə düşünürsüz.***

***F.Ağamalı:***

- Bəli. Ancaq burda bir şey var. Artıq Azərbaycanda aprel ayında seçkilər keçiriləndən və xalqın yüksək etimad bəslədiyi, hazırkı prezident yenidən prezident seçiləndən sonra Ermənistanla daha kəskin, daha ciddi və barışmaz mövqedə duraraq işğal olunmuş torpaqlar məsələsini qoymaq mümkündür. Bu, danışıqlar yolu ilə də ola bilər. Əgər iyun ayına qədər biz danışıqlarda müəyyən sıçrayışlara, addımlara nail olmasaq, Ermənistan buna getməsə, bu ilin iyul-avqust ayı müharibə üçün ən real zəmin yaradacaq. Biz ola bilsin ki, iyul-avqust aylarında Azərbaycan qoşunlarının aprel döyüşlərinin şahidi olacağıq.

***R.Arifoğlu:***

***- Əli bəy, Ermənistan mətbuatında da bununla bağlı bir narahatlıq var ki, Azərbaycan payız ərəfəsində hücuma hazırlaşdığı üçün indidən seçki məsələsini həll etmək istəyir, gündəmi boşaldır. Ermənistan üçün çox gərgin keçəcək mart ayından seçki sonrası dövrə salmaqla bir gərginlik yaradacaq. Amma fərqli fikirdə olanlar da var. O cümlədən də müxalifət şikayətçidir ki, onlara zaman qalmır. Bu düşərgənin təmsilçilərindən olan Əli Əliyevi də dinləyək. Və mən seyrçilər, oxucular və tarix üçün bir arayış verim ki, "Yeni Müsavat" qəzetində iki nəfərin proqnoz və məlumat xarakterli materialı dərc olunub ki, prezident seçkiləri mart, ya aprel ayında olacaq. Bunlardan biri Zahid Oruc, digəri Əli Əliyevdir. Onların hər ikisi bu iddia - öncəgörmələrə görə həmin zaman tənqidlərə məruz qalıblar. Əli bəyi dinləyək: doğrudanmı seçkilərin qabağa çəkilməsi müxalifəti seytnota salır və müxalifət üçün vaxt darlığı yaradır? Bir də imkan olsa, Fəzail bəyin də arqumentlərinə toxunarsız.***

***Ə.Əliyev:***

- Təşəkkür edirəm ki, Fəzail bəy bu qədər mürəkkəb situasiyada bu qərarı əsaslandırmağa çalışdı. Mən düşündüm ki, Şimali Koreya və Venesuelaya da keçəcək. Amma yaxşı ki, İran və Rusiyada dayandı. (gülür)

***F.Ağamalı:***

- (Etiraz edir) Venesuelanın bura nə dəxli var?

***Ə.Əliyev:***

- O zaman İranın bura nə dəxli var?

***F.Ağamalı:***

- Xeyr, İrandakı vəziyyətin bizə çox dəxli var.

***Ə.Əliyev:***

- Mən sizin fikrinizə hörmətlə yanaşıram və mənim bu məsələyə dair arqumentasiyam var. Hesab edirəm ki, bu qərar YAP-çılar və YAP tərəfdarları üçün də gözlənilməzdir. Mən qərarın əsaslandırılmasını mətbuat vasitəsilə izləyirəm. Kifayət qədər sanballı və hakimiyyəti bu vaxta qədər güclü müdafiə gücünə malik olan şəxslər bu qərarı əsaslandırmaqda çətinlik çəkiblər. Ad çəkmək istəmirəm. Amma bu günə qədər YAP düşərgəsindən olan insanların əsaslandırmaları yetərli deyil.

***R.Arifoğlu:***

***- O zaman siz əsaslandırın.***

***Ə.Əliyev:***

- Yox axı, qərar onlarındır. Mən necə əsaslandırım? Fikrimcə, bu, hakimiyyətin daxilində olan gərginliklərlə, yaxın qonşumuz Rusiyanın seçkidən sonra ayılıb özünə gəlməsi, müxalifətin pərakəndə şəkildə haqlanması, beynəlxalq cameyənin tərk-silah edilməsi ilə bağlı olan qərardır. Hakimiyyətin növbəti dönəmə keçirilməsi üçün YAP-ın bu qərarı qəbul etmiş şəxsləri düzgün qərar qəbul ediblər - özləri üçün. Bu faktorların hamısı, ilk növbədə müxalifətin pərakəndə halda haqlanması, onların 9 aylıq iş planı tutduğu halda, 2 ay ərzində təmərküzləşmə prosesinə getməyə məcbur edilməsidir.

***R.Arifoğlu:***

***- Əli bəy, bir replika verim. Müxalifət guya 7 ay sonra pərakəndə olmayacaqdı, birləşəcəkdi? O necə olacaqdı?***

***F.Ağamalı:***

- Mən də onu soruşacaqdım.

***Ə.Əliyev:***

- Mən ümid edirdim ki, müxalifətin bir məsələ ətrafında bir araya gəlməsi üçün ciddi problemi yoxdur. Biz ən azı 2013-cü ildə Milli Şura layihəsinin, 2003-cü ildə böyük birliklərin, 1998-ci ildə, 2005, 2010-cu illərdə müxalifət birliklərinin şahidi olmuşuq. Yəni müxalifətin arasında olan münasibətləri bu cür ümidsiz təqdim etmək yanlışdır. Mən hesab edirdim ki, hələ qarşıdakı illərdə müxalifətin bir məsələ ətrafında, xalqı təmərküzləşmək potensialı qalır. Buna, baş tutmamış bir hadisəyə mənfi münasibətlə qəti fikir bildirmək də düzgün deyil. Ancaq fakt ortadadır, seçki elan edilib.

***R.Arifoğlu:***

***- Ən azı müxalifət komponentlərindən birinin, yəni sizin kifayət qədər vaxtınız olub. YAP-çıların bilmədiyi bir mövzunu bilirdiz. Niyə hazırlaşmırdız?***

***Ə.Əliyev:***

- Kim dedi ki, mən hazırlaşmamışam?

***R.Arifoğlu:***

***- Bəs onda niyə tənqid edirsiz? Əksinə, sevinməlisiz ki, müxalifət komponentləri arasında yeganə olaraq VİP-in seçkilərin apreldə keçiriləcəyindən xəbəri var, gizli hazırlığını görüb. Bu, o deməkdir ki, siz müxalifətdən olan rəqiblərinizi sıradan çıxarmış sayılırsız və düşərgənin tək lideri kimi seçkilərdə iştirak edəcəksiz. Əslində belə başa düşürəm ki, bu qərar sizə də sərf edir.***

***Ə.Əliyev:***

- Əslində bu məsələ ətrafında qərarımız yoxdur. Bu axşam Siyasi Şuranın, sonra da məclisin toplantısı olacaq. Ondan sonra mən artıq rəsmən namizəd olub-olmayacağımla bağlı fikir bildirə biləcəm. Fəzail bəy bayaq dedi ki, bu seçkilərdə elə bir fərq, "tafoot" yoxdur. Amma seçki texnologiyasını bilən, seçki sistemindən xəbəri olanlar bilir ki, misalçün, 90 günlük seçki kampaniyası ilə 60 günlük seçki kampaniyası arasında böyük fərq var. Mən 1998-ci ildə Azərbaycanda 120 günlük seçki kampaniyasının iştirakçısı və təşkilatçılarından biri olmuşam. İndi seçki kampaniyasının normalda 90 günə, növbədənkənar olanda isə 60 günə salınması seçkidə gerçəkdən iştirak etmək istəyən tərəf üçün ciddi problemdir. Biz qanunun tələblərinə görə, 60 dairədən, hər birindən ən azı 50 imza olmaqla, 42-43 min imzanı MSK-ya təqdim etməliyik. Bu işi icra etməyən adamlar bilə bilməz. Amma mən zamanında bunu icra etmiş biri olaraq deyirəm ki, bu, olduqca çətin və titanik bir işdir. Hələ mənə MSK-nın qrafiki çatdırılmayıb. İndi bu dəfə seçkilərdə imza toplamağa nə qədər vaxt ayrılması barədə məlumatsızam. Bu məlumat mənim əlimdə olduqdan sonra daha aydın və dəqiq şəkildə, o imzaların toplanması üçün nə qədər vaxt, resurs, texnika lazım olacaq kimi bir suala cavab axtaracam. Amma sizə deyim ki, 60 gün ərzində Azərbaycan kimi bir ölkədə və Azərbaycanın real müxalifəti kimi resurslardan məhrum edilmiş, kommunikasiyalardan kənarda saxladılmış, heç bir rəsmi quruma buraxılmayan, dövlətdən rəsmi heç bir dəstək almayan siyasi qüvvə üçün belə irimiqyaslı kampaniyanı həyata keçirmək olduqca mürəkkəb və çətin işdir. Bizim hazırlığımız yarım ildən artıqdır ki, davam edir. Biz, ümumiyyətlə, 2013-cü ildən seçkiyə hazırlaşmağa başlamışdıq. Ancaq mayın 28-də keçirilən qurultaydan sonra qərar qəbul etmişik. O qərara əsasən, biz cari fəaliyyətimizi seçkiyə kökləmişdik. Dediyiniz kimi, biz ehtimal edirdik ki, seçki növbədənkənar keçiriləcək. Bu, məlumat yox, analizin nəticəsi idi. Həyat da göstərdi ki, biz haqlı idik. Yəqin ki, seçkiyə qatılmaq qərarımız olsa, çalışacağıq ki, müxalifəti bu seçkilərdə layiqincə təmsil edək.

***F.Ağamalı:***

- Təbii ki, mənim də Əli bəyin fikirlərinə hörmətim var. Ancaq bir qayda olaraq, Azərbaycan müxalifəti öz zəifliyini, problemlərini öz daxilində axtarmır. Ən böyük faciə bundan ibarətdir. Əgər hər bir siyasi partiya özünün uğursuzluğunu-uğurunu, çətinliklərini, problemləri təhlil edib, nəticə çıxarıb, gələcəkdə ona yol verməmək taktikasını həyata keçirsə, o partiyalar gələcəkdə daha üstün mövqeyə çıxar, uğurları da üstün ola bilər. Deyirsiniz ki, "pərakəndə hala saldırılmış müxalifət". Saldırılmış yox, müxalifət özü-özünü pərakəndə hala salıb. Əli bəy, axı bu gün müxalifətdə birlik yoxdur. Vaxtilə vardı, siz dediyiniz kimi. Amma yenə də onda "mehriban düşmən" modelində münasibətlər idi. O birliklər də müxalifətə heç bir uğur gətirmədi. Səbəbi nə idi? Çünki sizin qarşınızda olan siyasətçi nəhəng siyasətçi idi. Vaxtilə həmin siyasətçi ulu öndər Heydər Əliyev idi. Təbii ki, Heydər Əliyevin qarşısında o birliklərin heç biri uğur qazana bilməzdi. İndiki zaman kəsiyində, 2003-cü ildən bəri İlham Əliyev sübut etdi ki, Azərbaycandakı ən güclü siyasətçi, dövlət başçısı, ən praqmatik siyasətçi, vətənpərvər prezidentdir. Eyni zamanda o, 2003-cü ildən keçən müddətdə Azərbaycanı regionun lider dövlətinə çevirdi. Bu gün İlham Əliyev dünya çapında sayılıb-seçilən siyasi xadim və dövlət başçısı kimi qəbul olunur, etiraf edilir. Onun həyata keçirdiyi siyasət müxalifətin fəaliyyətini daraldır. Çünki Azərbaycan xalqı nə istəyirsə, bu sosial sifarişlər İlham Əliyevin siyasətində dərhal, bir çox hallarda qabaqlayaraq reallaşdırılır. Müxalifətin də müxalif söz deməyə yeri qalmır. Buyurun deyin, hakimiyyətin içərisində hansı qeyri-müəyyənlikdən danışmaq olar? Bu gün müxalifətin içində birlik yoxdursa, müxalifət çoxqütblüdürsə, biri digərini qəbul etmirsə, bunu özünüzə dərd etməyin. Qüvvələrinizi, potensialınızı cəmləşdirin, gedin seçkiyə...

***R.Arifoğlu:***

***- Yəni Fəzail bəy, siz düşünürsüz ki, prezident seçkilərinin növbədənkənar keçirilməsinin müxalifətin seytnota salınması və daxili amillərlə heç bir əlaqəsi yoxdur?***

(davamı növbəti sayımızda)

Söhbəti qələmə aldı
Sevinc TELMANQIZI



**Əli Əliyev:** "Bu qərar müxalifətin pərakəndə halda haqlanması, onların 9 aylıq iş planı tutduğu halda, 2 ay ərzində təmərküzləşmə prosesinə getməyə məcbur edilməsidir"



**Fəzail Ağamalı:** "Azərbaycan müxalifəti öz zəifliyini, problemlərini öz daxilində axtarmır. Ən böyük faciə bundan ibarətdir"

YENİ MÜSAVAT
N 31 (6920) 9 fevral 2018

# Abutalıbovun oğlu adını dəyişib və 20 milyon dollara hotel alıb

## “İsrafil Abutalıbov Bakıda bir vaxtlar öz bədxərcliyi, tez-tez dəbdəbəli məclislər qurması ilə ad çıxarmışdı, sonra isə…”

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbov (yeni adı Abu Bəkr - gununsesi.info) İstanbulun Sultanahmet məhəlləsində dəyəri 20 milyon dollara olan hotel alıb. Sayt yazır ki, Türkiyədə vətəndaşlıq statusu alaraq, adını da Abu Bəkr kimi yazdıran Bakı merinin oğlu aldığı hotelin yenilənməsi üçün daha bir neçə milyon xərcləyib.**

“Ajwa” adı ilə fəaliyyət göstərən hoteldə Azərbaycan mətbəxini təklif edən ayrıca restoran da fəaliyyət göstərir. Sayt Abutalıbovun Türkiyədə biznesini genişləndirməsi ilə bağlı daha maraqlı məlumatlar üzə çıxarıb. Belə ki, turizmgazetesi.com-un yazdığına görə, Abu Bəkr Abutalıbov “Ajwa” markası ilə ikinci hotelini də Kapadokyada açacaq.



İsrafil Abutalıbov adı illərdir ki, mətbuatın gündəmindən düşmür. 2006-cı ildə qəzetlər İsrafil Abutalıbovun öz bahalı avtomobilində İstiqlaliyyət küçəsindəki elit dükanların birinə girərək qəzəbli halda oradan biri 2 min dollar olan qadın paltarı aldığını, həmin paltarla maşınının şüşələrini və təkərlərini silib nümayişkaranə şəkildə cırdığını və zibil qutusuna atdığını yazırdı. Səbəb də o imiş ki, İsrafil bəyin rəfiqəsi o dükandan həmin paltarı almaq istəyib. Amma satıcılar ona paltarı əyninə geyib yoxlamağa icazə verməyib. Qız bundan qəzəblənərək İsrafil bəyə məlumat verib. Sonrası məlumdur… Bu xəbər yaddan çıxmamış İsrafil Abutalıbovun İngiltərəyə köçməsi xəbəri gəlmişdi. Sabiq rabitə və informasiya texnologiyaları naziri Əli Abbasovun qızı ilə boşanandan sonra İsrafil Abutalıbov uzun müddət Londonda yaşamışdı. Bakıya illər sonra tamam başqa qiyafədə və düşüncədə qayıdan Hacıbala Abutalıbovun oğlu atasının belə işdən çıxmasına təkid etməsi xəbərləri yayılmışdı. Belə xəbərlər vardı ki, İsrafil Abutalıbov vəhhabilər kimi uzun saqqal saxlayır, onlar kimi şalvarının balağını gödəldib. Valideynləri bundan təəccüblənsə və gözləmədikləri belə yeniliyə etiraz etsə də, o, heç kimə və heç nəyə məhəl qoymadan düşüncəsindən dönməmişdi. Evə qapılaraq gündə 5 rükət namazını qılır, vaxtını yalnız dini ədəbiyyat oxumaqla keçirirdi. Əvvəlki pompeyvari həyat tərzini dəyişən gənc Abutalıbov evdə valideynləri ilə tez-tez uzun-uzadı söhbət və mübahisələr edir, onu başa düşmələrini istəyir, yaxınlarının da “Allah yoluna gəlməsini” tələb edirdi. İsrafil Abutalıbovun Bakıda yəhudi əsilli iş adamı Qurban Mahmudova təzyiqlər göstərməsi də yaddaşlardan silinməyib. Yasamal rayonu, Nazim Hikmət 25 ünvanında yerləşən iki otaqlı obyekti İsrafil Abutalıbovun adamı Bəxtiyar Məmmədov 2009-cu ildə “SPEKTR” Kiçik Müəssisəsindən müqavilə əsasında icarəyə vermişdi. Orada lombard fəaliyyəti ilə məşğul olan yəhudi iş adamı günlərin birində İsrafil Abutalıbovun ultimatumu ilə üzləşmişdi. Oğul Abutalıbov iş adamından təcili şəkildə ofisdən çıxmasını tələb edirdi, onun fəaliyyətinin dinə zidd olduğunu bildirirdi. İş adamı isə əlində müqavilə olduğunu və müqavilə müddəti bitməyincə ofisdən çıxmayacağını deyirdi. Sual edirdi ki, əgər onun fəaliyyəti dinə ziddirsə, icarəyə verilən əmlakın hansı pullar hesabına alındığı da açıqlansın. Bilinsin ki, İsrafil Abutalıbov hansı hesabdan, hansı biznesdən gələn gəlirlə həmin əmlakları aldığını açıqlasın.

Yada salaq ki, İsrafil Abutalıbovun yeganə iş yeri haqda məlumat var. O, 2008-ci ilə qədər Konstitusiya Məhkəməsi sədrinin köməkçisi vəzifəsini tutub. Adı mətbuatda qalmaqallı olayların baş qəhrəmanı kimi keçəndən sonra vəzifəsindən uzaqlaşdırılmışdı.

İsrafil Abutalıbov Bakıda bir vaxtlar öz “səxavəti”, bədxərcliyi, tez-tez dəbdəbəli məclislər qurması ilə ad çıxarmışdı. BŞİH başçısının ərköyün balasının bahalı maşınlar həvəskarı olduğu da deyilirdi. Qadınların əhatəsində aktiv gecə həyatı yaşamağı ilə “məşhurlaşan” bu gənc məmur övladı üçün heç bir hədd-sədd yox idi. Onun bir gecədə dəstə-dəstə pul xərcləməsi haqda da əfsanələr dolaşırdı. Yəhudi əsilli iş adamının İsrafil Abutalıbovun Bakıda əmlakları hansı hesabdan alması sualı bu gün də aktuallığını saxlayır. Eyni sual Türkiyədəki əmlaklarla bağlı da keçərlidir.

❑ **E.HÜSEYNOV,**
**“Yeni Müsavat”**

# Neft Fondunun aktivləri risk altında-səbəb

## ARDNF öz vəsaitlərini qorumaq üçün son dərəcə diqqətli və çevik siyasət yürütməyə borcludur

**Həftənin ilk iş günü ABŞ və dünya fond bazarında baş verən ciddi sarsıntı hələ də dünya mətbuatının, analitik mərkəzlərin gündəmindən düşmür. Qeyd edək ki, ikinci gün də ABŞ fond birjaları enişlə başlasalar da, günü 1.8-2,3 faiz yüksəlişlə başa vurublar.**

Dünya mətbuatının yazdığına görə, fond bazarları 2011-ci ilin avqustundan bəri belə eniş görməmişdilər. Hələ də analitiklər bu sarsıntının ciddi böhran, yaxud adi korreksiya əlaməti olduğu barədə yekdil fikrə gələ bilməyiblər. Optimistlər hesab edirlər ki, bu, adi korreksiyadır - 405 ticarət günü ərzində birjalarda 6 və daha yüksək faizli korreksiya olmayıb, bu isə presedenti olmayan uzun müddət sayılır. Buna əsaslanan optimistlər yaxın 2-3 həftədən sonra kotirovkalarda yenidən yüksəliş başlanacağını proqnozlaşdırırlar.

Pessimistlər isə baş verənlərin adi korreksiya deyil, maliyyə böhranının əlaməti olduğu qənaətindədirlər.

Amerikalı milyarder Karl Aykan CNBC telekanalına müsahibəsində bildirib ki, bazar ertəsi baş verənlərin yaxın gələcəkdə qeydə alınacaq daha ciddi, hətta Böyük depressiya dövründəkindən daha dağıdıcı sarsıntıların xəbərçisi olduğuna əmindir.

Onu da qeyd edək ki, ABŞ və dünya fond bazarında baş verən dəyişikliklər Azərbaycana təsirsiz ötüşmür. Belə ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) vəsaitlərinin bir hissəsi məhz səhm bazarına yatırılıb. Fond birjalarında baş verən enişdən Neft Fondunun itkiləri ilə bağlı qurumа ünvanladığımız sorğuya verilən cavaba görə, 31 dekabr 2017-ci il tarixinə ARDNF-nin investisiya portfelində səhm maliyyə alətinə yatırımlar Asiya regionu üzrə 0,82 faiz (294 milyon ABŞ dolları), ABŞ üzrə isə 4,73 faiz (1,7 milyard ABŞ dolları) təşkil edir: “Bundan əlavə, qeyd etmək istərdik ki, 31 dekabr 2017-ci il tarixinə ARDNF-nin Asiya regionu üzrə bütün maliyyə alətlərinə yatırımlar investisiya portfelinin 26,16 faizini (9,4 milyard ABŞ dolları), ABŞ üzrə isə 23,80 faizini (8,5 milyard ABŞ dolları) təşkil edir”.

**ABŞ və Asiya fond birjalarında müşahidə olunan enmələrin Dövlət Neft Fondunun aktivlərinə təsiri varmı? Fonddan “Yeni Müsavat”a verilən məlumata görə, hazırda ARDNF-nin ümumi investisiya portfelində səhm investisiyalarının çəkisi 11 faiz təşkil edir ki, burada da ABŞ-ın payı təxminən 40 faizə bərabərdir:** “Təbii ki, ABŞ, Asiya ölkələri də daxil olmaqla, dünya səhm bazarında baş verən qiymət enmələri ARDNF-nin də investisiyalarına təsirsiz ötüşməmişdir. Lakin ARDNF-nin vəsaitlərinin həcmində səhmlər yuxarıda qeyd edildiyi kimi, daha az hissəni təşkil etdiyindən ümumi gəlirlilikdə ilin əvvəlindən bəri müsbət gəlirlilik qeydə alınmışdır. Məlum olduğu kimi, ARDNF-nin investisiya portfelinin əhəmiyyətli hissəsi (təxminən 77 faiz) sabit gəlirli qiymətli kağızlara yatırılmışdır və bununla yanaşı, vəsaitlərin tərkibində daşınmaz əmlak və qızıl kimi aktivlər də mövcuddur. Təbii ki, səhm yatırımları uzun müddətdə daha yüksək gəlirlilik vəd etsə də, qısamüddətli qiymət dəyişkənliyinə daha çox məruz qalırlar. Lakin portfelin yüksək diversifikasiyasının təmin edilməsi, eləcə də əsaslı araşdırmalara söykənən mütəmadi monitorinqin aparılması bu kimi dalğalanmaların təsirinin minimuma endirilməsində müstəsna rol oynayır”.



ARDNF-nin dünən açıqladığı ümumi məlumatda isə qeyd olunur ki, ötən il fondun vəsaitlərinin 47,1 faizi dollar, 35,7 faizi avro, 5,1 faizi funtsterlinq, 1 faizi Türkiyə lirəsində, 1,1 faizi Rusiya rublunda, 1,3 faizi Koreya vonunda, 1,5 faizi Yapon yenində, 1,4 faizi Çin yuanında, 3,5 faizi qızılda, qalanı digər valyutalarda saxlanılıb.

2017-ci ildə fondun vəsaitləri üzrə ümumi gəlirlilik 2,32 faiz təşkil edib. 1,01 faiz gəlirlər səhmlərdən, 0,22 faiz daşınmaz əmlakdan, 0,65 faiz istiqrazlar və pul bazarı alətlərindən, 0,44 faiz qızıldan əldə olunub.

İl ərzində fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 1 milyard 83,6 milyon manat olub. Bu isə o deməkdir ki, investisiya portfelinin cəmi 14,9 faizini təşkil edən səhmlərdən fondun qazancı 471,4 milyon dollar, yaxud vəsaitlərin idarə olunmasından əldə olunan ümumi gəlirin 45 faizindən çoxu olub. Cəmi yatırımların, yəni 35 milyard 799,9 milyon dolların 76,3 faizini təşkil edən istiqrazlar və pul bazarından isə 303,6 milyon dollar, yaxud ümumi gəlirin 30 faizə yaxını qədər, 3,5 faiz vəsaitin yatırıldığı qızıl portfelindən 205,5 milyon dollar, 5,3 faiz vəsaitin yatırıldığı daşınmaz əmlak portfelindən isə 102,7 milyon dollar gəlir əldə olunub. Bu isə o deməkdir ki, fondun investisiya portfelində ən aşağı gəlirlilik istiqrazlar və pul bazarı alətləri, həmçinin daşınmaz əmlakdan əldə olunub. Ən yüksək gəlirlilik isə səhmlərdə qeydə alınıb.

Məsələ burasındadır ki, dünyanın nüfuzlu ekspertləri son həftələrdə iki sahədə köpüklərin yarandığını bildirərək, onların partlaması nəticəsində növbəti qlobal böhranın yaranacağını vurğulayırlar. Bunlardan birincisi səhm bazarıdır - bu həftənin əvvəlində bu bazar çox böyük sarsıntıya məruz qaldı. Bir günün içərisində ABŞ, Asiya və ardınca Avropa fond indeksləri indiyədək olmayan səviyyədə dəyər itirdilər. ARDNF-nin ən gəlirli aktivləri məhz səhm bazarındadır.

Köpüklərin yarandığı ikinci sahə dövlət qiymətli kağızlar bazarıdır. Analitiklər tərəfindən xüsusilə ABŞ dövlət istiqrazları sahəsində vəziyyətin daha təhlükəli həddə çatdığı qeyd olunur. ARDNF-nin vəsaitlərinin 77 faizi məhz istiqrazlar və pul bazarı alətlərinə yatırılıb. Bu isə həmin vəsaitlərlə bağlı də təhlükənin yarandığı anlamına gəlir.

Belə bir çətin situasiyada ARDNF öz vəsaitlərini qorumaq üçün son dərəcə diqqətli və çevik siyasət yürütməyə borcludur.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 31 (6920) 9 fevral 2018

# “Atamı onda suçlu sayıram ki...”- həbsdəki OMON-çu komandirin qızından ilginc açıqlamalar

**22 ildir ömürlük həbs cəzası çəkən OMON-un əfsanəvi komandiri Elçin Əmiraslanovun fevralın 6-da 56 yaşı tamam oldu. Hazırda Qobustan həbsxanasında saxlanılan, səhhətində ciddi problemlər olan, 20 il övladları görüşünə gəlməyən OMON komandirinin qızı Aytac Əmiraslanova ilə atasının doğum günü və digər məsələlərlə bağlı söhbət etdik.**

## Aytac Əmiraslanova: “20 il atamla görüşmədim...”



***- Aytac xanım, bir övlad üçün atanın 22 il həbsdə olması nə deməkdir?***

- Mən 10 yaşımda olarkən atam həbs edilib. O vaxt babam və nənəmlə yaşadığım üçün atamın üzünü az görürdüm. Atam anamla yaşayırdı. Açığı, atam həbs ediləndən bir müddətə qədər bunun nə olduğunu bir o qədər də dərk etmirdim. Sonralar hər kəs dünyasını dəyişdi, mən böyüdüm. 20 il atamla görüşmədim, buna icazə verilmirdi. Nə atam bunu istəyirdi, nə də anam və nənəm. Böyüdükdən sonra atamı görmək ehtiyacı duydum, getdim onun yanına. Sonrakı görüşlərdə isə qardaşımı da apardım. Əlaqələr bax belə yarandı. Onu da deyim ki, 20 il ərzində görüşməsək də, telefon əlaqələrimiz ara-sıra olurdu. İndi 33 yaşım var. Atasız olmağın çətinliyini getdikcə daha çox anlayıram. Babam rəhmətə gedəndən sonra bir tərəfimi yox kimi sayıram. Övlad üçün ana və atanın öz yeri var. Hər bir ailədə kişi olmalıdır.

***- 56 yaşında Elçin bəy azadlıqda olsaydı, bir övlad kimi onun doğum gününü necə keçirərdiniz?***

- Hər bir övladın əlindən nə gəlirsə, mən də onu edərdim. Bəlkə heç kəsin yanımızda olmasını istəməzdim, ancaq atamın yanımızdakı varlığı bizə yetərdi. Yanına indi də gedirəm, qalıram da. Özünə də demişəm ki, ailə qurmadım, səni gözləyirəm, nə vaxt oradan çıxarsan, necə istəsən həyat tərzim o cür olacaq. Atama onu da demişəm ki, azadlığa çıxdıqdan sonra nə qədər ömrün qalsa, həmin ömrü mən səninlə yaşayacam. Çünki mən heç vaxt atamla bərabər olmamışam. Üstəlik, 20 il heç üzünü də görməmişəm.

***- Atanızın 57 yaşını azadlıqda qeyd edəcəyinə inanırsınız?***

- Ümid hər zaman olub. Tək atama görə demirəm, hər bir sahədə insanın ümidi olmalıdır. Ümidi olmayan insan sanki yaşamır.

***- Sonuncu dəfə atanızı nə vaxt görmüsünüz?***

- Bir neçə ay bundan öncə görüşünə getmişəm. Telefon əlaqəmiz həftədə iki dəfə daim olur.

***- Qobustan həbsxanasındakı digər iki OMON-çu-Səfa Poladov və Arif Kazımovun saxlanma şəraiti ilə bağlı ciddi problemlər var. Atanız necə?***

- Atamın əvvəl problemləri çox idi. Amma hazırda digərlərindən fərqli olaraq, səhhəti normaldır. Həkim nəzarəti altındadır. Yalnız bir problemi var. O da onunla bağlıdır ki, həbsdə olduğu müddət ərzində hər il müalicə üçün Bakıya gətirilirdi. Amma son bir ildə Penitensiar Xidmət bunu etmir. Müraciətlər edirik, əhəmiyyəti olmur. Atamın başının yarısı plasmasdır, bədəni qəlpələrdən ibarətdir. Bu insan ildə bir dəfə 2-3 ay müddətində gəlib müalicə almalıdır.

***- Elçin bəy həbsdə olduğu 22 il ərzində nələr itirdiniz? Əgər atanız bu müddətdə azadlıqda olsaydı, övlad kimi nə edəcəkdiniz ki, edə bilmədiniz...***

- Hər zaman düşünmüşəm ki, bir insan ailə həyatı qurursa, bir qadın ərə gedirsə, bir kişi evlənirsə, yəni ailə həyatına addım atırsa, o, ailə vəziyyətində olmalıdır. Ata, ana, övladlar müxtəlif tərəflərdə olanda buna ailə demirlər. Reallığı deyəcəm, əgər atam azadlıqda olsaydı, indi mən tamam başqa bir insan idim. Ən azından başqa bir vəzifəli şəxs olardım, həyat tərzim başqa cür olardı. Atam azadlıqda olsaydı, bu gün bizim ailə tamam bir başqa ailə idi. İtirdiklərim bu illər ərzində saysız-hesabsız oldu. Əziyyət çəkib Rusiyada 6 il universitetdə hüquq fakültəsində oxudum, magistraturanı belə bitirdim. Amma bu gün o diplomum heç bir işə yaramır. Çünki Azərbaycan məni belə qəbul etmir. İstənilən halda atamın yoxluğu ən böyük itkimdir. Onun yanımızda olmaması o deməkdir ki, bizim qazandıqlarımız yoxdur. Yalnız atam yanımda olsa, bütün işlərim yolunda gedər. Bu dəqiqə qardaşım da yanımda yoxdur, Rusiyada hüquq təhsili alır. Çünki burada oxuya bilməzdi, o isə hüquq fakültəsini bitirmək istəyirdi. Atama görə isə biz Azərbaycanda hüquq sahəsinə gedə bilmərik. İldə bir dəfə qardaşımın yanına imkan olanda gedirəm. Anam da ara-sıra gedir.

### “Atamdan ayrılmaq üçün anama təzyiqlər oldu”

***- Atanızı bir ailə başçısı kimi hələ görməmisiniz. Buna baxmayaraq, onun yoxluğunu daha çox nə zaman hiss edirsiniz?***

- Çətinliklərim çox olur. Xırdalığına qədər getmək istəmirəm. Kiçik bir misal deyəcəm. Bir işin ucundan tutmaq istəyirəm, amma qərarsız qalıram. Bir tərəfdən atamın məhbus olması, digər tərəfdən də yanımızda olmaması qarşımı kəsir. Amma yanımda olsaydı, atam istənilən halda o işi alındıracaqdı. Adi şeyləri belə edə bilmirəm. Dostlarım hər zaman mənə təskinlik verirlər. Bir gün yaşadığım həyat da mənə dedi ki, Aytac, yaxşı qızsan, amma valideynlərin cəzasını övladlar çəkir. Sözsüz ki, bu gün anam, atam, qardaşıma görə ölümə də gedərəm. Amma həyatımın hər anında görürəm ki, nəyinsə cəzasını çəkirəm, şəxsi həyatım da belə. Bütün yükü öz boynumda hiss edirəm.

***- Çətinlikləriniz çoxdur. İstər Elçin bəyin həbs olunduğu ilk illər, istərsə də bu günə qədərki zaman olsun, onun dostlarından, qohumlarından yanınızda olanlar oldumu və hazırda varmı?***

- Xeyr, atamın nə dostları, nə də qohumları yanımızda olmadılar. Təsəvvür edin ki, qardaşım 10 yaş məndən kiçikdir, ona belə mən baxdım. Biz ana, iki övlad, nənə və baba olaraq taleyin ümidinə atıldıq. Nə qədər qohum-əqrəba olsa da, hamı özü üçündür. Bu gün heç kəs heç kəsə yanmır. Maddi və mənəvi baxımdan bizə kömək edən olmadı.

***- Atanızla bağlı bir müraciətiniz varmı?***

- İndiyə qədər hər yerə müraciət etmişik. Avropa qurumlarına müraciətlər etmişəm. Yenə də aidiyyəti şəxslərdən, qurumlardan xahiş edirəm ki, məni atama qovuşdursunlar. Vaxtilə atamın da səhvləri az olmayıb. Müəyyən yumşalmalar etsəydi, razılığa getsəydi, indi azadlıqda olardı. Düzdür, günahı var. Amma atam mərd, cəsur insandır. Bayırda ləyaqətsiz insanlar az gəzmirlər, lakin atam məhbəsdədir. O, içəridə çürüməli deyil. Onun azadlıqda olması bir insanın, yəni mənim varlığımı dəyişə bilər. Ona görə xahiş edirəm ki, atamın ömürlük cəzasını illə əvəz etsinlər. Azından mən də ümid edim ki, atam nə vaxtsa çıxacaq.

***- Qazax camaatının ailənizə münasibəti necədir?***



- Hər zaman o əhali atama və bizə hörmət edib. Atamı mərd, qəhrəman kimi xatırlayırlar. Ola bilər ki, bizi və atamı yaxından tanımayanlar deyə bilər ki, o, həbsdə olduğu üçün cinayətkardır. Amma atamı tanıyan hər kəsin ona hörməti olub.

***- Cəza çəkdiyi yerdə necə?***

- Orada da çox yaxşı hörməti var. Bayırda necə olubsa, eynilə həbsxanada da elədir. Atam oradakı digər məhbuslardan hər zaman fərqli olub, yaşayış tərzi də, özü də. O hörməti onun özü qazanıb. Bəzən görüşə gedəndə deyirəm ki, bunu niyə belə etmirsən, deyir ki, mən burada nümunəyəm, ətrafım məndən nə nümunə götürər.

***- Elçin bəylə həbsxanadakı digər iki OMON-çu arasında münasibətlərin soyuq olduğu deyilir...***

- Onları tanımıram, sadəcə, adlarını eşitmişəm. Əvvəllər atamla münasibətləri çox yaxşı olub. Eşitdiyimə görə, bir neçə il əvvəl aralarında söz-söhbət olub. Nəyin buna səbəb olduğunu bilmirəm. Bu barədə atam da mənə heç nə deməyib. Onların valideynləri daim bizə mənfi münasibət bəsləyirlər. Onları qınamıram da. Arif Kazımov subay ola-ola türməyə girib. Atamın ucbatından onun yaxınları bunun olduğunu deyirlər. Onu dana bilmərəm, atamın ucbatından oldu. Valideyndir, iyirmi neçə yaşında oğlu həbsxanaya düşdü, həyatı puç oldu.

***- Elçin bəyin adı bir çox qətl hadisələrində, cinayətlərdə hallanır. Bütün bunlara görə onun həyatına təhlükələr hələ də davam edirmi?***

- Hazırda yoxdur. Amma həbs olunduğu ilk vaxtlar çox idi. Yanına həbsxanaya adam da göndərilib. Yeməyinə nəsə qatmağa cəhd ediblər. Hətta qadın da yanına göndəriblər. Vəkil qismində qadın ona yaxın olmağa cəhd edib. Belə təhlükələr bir müddət olub.

***- OMON hadisələri ilə bağlı həbs edilən bütün şəxslər bu və ya digər formada azadlıqdadırlar. Hətta OMON-un respublika komandiri Nizami Şahmuradov belə... Bəlkə atanız və digər iki şəxsin azadlığa çıxmasını konkret əngəlləyən şəxs var?***

- Ola bilər. Amma bilmirəm kimdir. Belə bir versiya çox inandırıcıdır. Kimsə ondan qorxduğu üçün belə edə bilər ki, atam azad olunsa onun həyatını bitirər. Atamdan çox adam qorxa bilər. Bəlkə də yüksək vəzifəli bir şəxslə atamın konflikti olub, o, bunu əngəlləyir.

***- Özü bu barədə nə deyir?***

- Özü bu haqda danışmır. Amma hər zaman azadlığa çıxacağını deyir. 10-15 il əvvəl çox müraciətlər etdik, üzr istəmələr oldu. Amma atam əyilmədi. Əfv də yazmadı. İndi ola bilər ki, artıq gec olsun.

***- Arif Kazımov və Səfa Poladovun bu səbəbdən atanızla danışmadıqları deyilir...***

- Səbəblərdən biri bu ola bilər. Mən də belə eşitmişəm.

***- Ananız nə üçün Elçin bəydən ayrıldı?***

- O vaxt başqa bir vəziyyət yaranmışdı. Anama ayrılmaq üçün təzyiqlər olundu. Hətta nəyisə itirə biləcəyi barədə hədələr də olmuşdu. Onlar özləri könüllü ayrıldılar. Bəlkə də başqa səbəblər olmuşdu. Mənə deyilənlər bu idi.

***- O ayrılıq atanıza necə təsir etdi? Eşitdiyim qədəri ilə ananızı çox sevirmiş...***

- Atamın həyatında sevdiyi yeganə insan o olub. Bunun üçün ayrılmaları ona hələ də ağır təsir edir. Atam hər zaman sadiq olub, xəyanətkarlıq ondan daim uzaqdır. Bu, ailədə də belə olub, getdiyi yolda da. Hətta ona xəyanət edənə belə xəyanət etməz. Evimizdə heç vaxt atamın əleyhinə nə anam, nə də ana nənəm danışmayıb. Əksinə, atamı tərifləyiblər. Sadəcə, qorxduqları üçün onlar 20 il bizim atamla görüşməyimizə mane oldular. Başqa bir səbəb yoxdur.

***- Heç demisiniz ki, kaş atam bunları etməyəydi...***

- O hadisələrdən qabaq anam ona çox deyib ki, bunları etmə. Amma atam hər zaman deyirmiş ki, mən söz vermişəm, kişi sözündən dönməz, Rövşən Cavadovu tək qoya bilmərəm. Atamı bir şeydə suçlu sayıram ki, azından sənin ailən var idi, qız uşağın böyüyürdü, oğlun iki aylıq idi. Atamı yalnız bunlara görə suçlu sayıram. Çox şeyə əks getməkdə atam düzgün etmədi. İndi yaşlaşıb, yanımızda olmaq istəyir, amma bu da alınmır. Yoldaşı ayrıldı, övladları 20 il görüşmədi, atam həyatda yox kimi bir şeydir. Dəfələrlə özünü öldürmək istəyib. Bir otaq yoldaşı deyib ki, özünə qəsd etmə, bir gün övladların gec də olsa, gəlib səni tapacaq.

### “Azadlıqda olsaydı, indi mən tamam başqa bir insan idim”

***- Bir insan 22 il həbsdədir, övladları görüşünə getmir, yarımcandır, həyat yoldaşı ondan ayrılır... Belə insan olan Elçin Əmiraslanovu yaşadan nədir?***

- Atam iradəli insandır. Atamla danışanda deyirəm ki, hər ikimizin taleyi eynidir. Baxmayaraq ki, o, həbsdə, mən isə azadlıqdayam. Atam heç vaxt sınmayıb. Bəlkə də onu həyatda saxlayan biz övladları olmuşuq. Ümid edib ki, nə vaxtsa övladları onu görməyə ehtiyac duyacaqlar.

***- “Mən bir gün azadlığa çıxacam” ümidi necə...***

- Bu ümid də mütləq səbəbdir. Onu da deyim ki, atam həbsxanaya daha çox öyrəşib. Bəzən atama deyirəm ki, bəlkə də həbsxanada olmağın səni görməyimizə səbəb oldu. Çünki atam azadlıqda olsaydı, bəlkə də artıq həyatda deyildi. Ola bilər ki, Allah atamı qorumaq üçün həbsxanaya saldı. Ən azından atam sağdır. Atam bundan sonra yalnız övladlarına lazımdır.

❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 31 (6920) 9 fevral 2018

**Rusiya ali qanunvericilik orqanının üzvü növbəti dəfə Azərbaycana qarşı ağır cinayət törədib. Moderator.az-ın verdiyi xəbərə görə, yenə də söhbət Rusiya Federasiyası Dövlət Dumasının MDB və həmvətənlərlə iş komitəsi sədrinin birinci müavini Konstantin Zatulindən gedir. Rusiya deputatı "Azərbaycan Respublikasının Dövlət Sərhədi haqda" qanunu pozaraq ölkəmizin işğal altındakı ərazilərinə daxil olub. O, separatçı-terrorçu rejimin rəhbəri Bako Saakyan və "parlament rəhbəri" adlanan Aşot Qulyanla görüşüb. Bundan öncə K.Zatulin İrəvanda Ermənistanın prezidenti hesab edilən Serj Sərkisyanla da təmasda olub.**

# "Qarabağa gedən rusiyalı deputat cəzalansın" tələbi



## Zahid Oruc: "Zatulinin bu addımına etiraz dövlət səviyyəsində olmalıdır"

Rusiya parlamentarisinin səfəri haqda məlumat Rusiya Dumasının rəsmi saytında dərc edilib. Xatırladaq ki, mütəmadi olaraq Ermənistan və Dağlıq Qarabağa səfərlər edən Rusiya Dumasının deputatı Konstantin Zatulin hələ 2010-cu ilin mayında Xankəndində qondarma rejimin saxta "parlament" seçkilərində də iştirak etmişdi.

Maraqlıdır ki, bu səfər ərəfəsi, fevralın 7-də Milli Məclisin sədri **Oqtay Əsədov** Rusiya Dövlət Dumasının binasında Rusiya-Azərbaycan diplomatik münasibətlərinin 25 illiyi münasibətilə keçirilən tədbirdə çıxışında Rusiya-Azərbaycan münasibətləri haqqında yüksək fikirlər səsləndirib: "Mən prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri zamanı çıxışında qeyd etdiyi bir fikri xatırlatmaq istərdim: "Əgər bütün dünyada münasibətlər Rusiya və Azərbaycan arasında olan münasibətlər kimi olsaydı, o zaman dünyada heç bir problem olmazdı". Hesab edirəm ki, bu fikir Azərbaycan-Rusiya münasibətlərinin kursunu göstərir"...

Lakin görünən odur ki, ya Rusiya hər zamankı kimi ikili siyasətindən geri qalmır, ya da Konstantin Zatulin adlı deputatla bacara bilmir...

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan Milli Məclisin deputatı Zahid Oruc bildirdi ki, hazırda Rusiya rəsmi dairələrində Azərbaycana qarşı əvvəlki düşmən münasibət sərgilənmir:** "Dağlıq Qarabağ məsələsi ilə bağlı 90-cı illərdəki Rusiya münasibəti onların siyasi məkanından, informasiyan mühitindən, dövləti xəttindən bir xeyli dəyişib, yenilənib. Bu hər cəhətdən özünü göstərir və mən onu təqdir edirəm. Bu gün Rusiya məkanında bir çox siyasətçilərin çox rahatlıqla Azərbaycan haqqında ədalətli, adekvat mövqe sərgilədiklərini görməkdəyik. Bu o şəraitdə baş verib ki, Rusiyanın diplomatik-siyasi idarələrində yetərincə ermənilər var. Onlar öz səlahiyyətlərini Kremldən özlərinə göstərilən isti münasibətlə qazanmayıblar. Açıq söyləmək lazımdır ki, yüzillər ərzində ermənilər Rusiya dövlət idarəçiliyi həyatındakı fəaliyyətləri ilə özlərinə məqam, kürsü, rütbələr qazanıblar. Belə olan halda, 90-cı illərdə əgər bəzi rus jurnalistlər hər gün Azərbaycana qarşı zəhər püskürürdülərsə, bizim adımız, işlərimiz o məkanda ermənilərin genosidə uğratmaq kimi təqdim olunurdusa, bu gün artıq rəsmi müstəvidə bunlar mövcud deyil. Nəzərə almalıyıq ki, yüzminlərlə saytlar, informasiya daşıyıcıları, virtual qüvvələr və sair var. Ona görə də bəzən balansı gözləmək üçün Zatulin kimilər Dağlıq Qarabağa gedirlər".

**Deputatın sözlərinə görə, Zatulinin bu addımı Rusiyanın daxilindəki qüvvələr arasında balans yaratmaq məqsədi də daşıya bilər:** "Rusiya məkanında qeyd etdiyimiz qüvvələrin mövqeyini sanki balanslaşdırmaq üçün, tarazlıq yaratmaq üçün Konstantin Zatulin Qarabağa gəlib, orada hansısa görüşlər keçirir. Sübut etməyə çalışır ki, sizin pulunuzdan asılı deyiləm. Hərçənd ki, ortada o da var. Sanki dövlətin içindəki müəyyən qüvvələrin ssenarisini həyata keçirirlər. Rusiya kimi güclü bir ölkənin içində "yumurtaların hamısını bir səbətə yığmamaq " iradəsi var. Digər tərəfdən, beyinlərində hələ də bizi düşmən kimi görənlər var. Düşünürlər ki, türk coğrafiyasının bir parçası olan Azərbaycan müstəqilləşsə, güclənsə, daha böyük fəlakətlər yaradar, Rusiyanın nüfuz dairəsindən çıxar. Bununla yanaşı, burada başqa mərkəzlərin də tapşırıqları var".

**"Nə etməliyik" sualına gəlincə, Z.Oruc vurğuladı ki, hər zamankı kimi bu məsələdə də etirazımızı bildirməliyik:** "Xarici İşlər Nazirliyinin siyahısında bu adamların adları qeyd olunmalıdır. Onlar bilməlidirlər ki, bizim üçün arzuolunmaz şəxsdirlər. Bu fəaliyyətlərinə görə sanksiyalarla üzləşəcəklərini bilməlidirlər. Rusiya parlamentində olan dostluq qruplarımızın əli ilə hər zaman bu qüvvələrin üzərinə getməliyik ki, onlar bu addımlardan çəkinsinlər. Əsas fəaliyyət isə ölkənin içində siyasi, iqtisadi müstəvidə olmalıdır ki, sonunda Dağlıq Qarabağ Azərbaycana qayıtsın, Zatulinə məhz Bakıdan keçərək Qarabağa keçməyə icazə verək. Zatulinin bu addımına etiraz dövlət səviyyəsində olmalıdır. Parlament üzvləri buna qarşı bəyanatlar irəli sürməlidirlər. O cümlədən Xarici İşlər Nazirliyində bu addımı atan insanlara qarşı sərt addımlar seçilir, onlar qara siyahıya salınır. Görünməlidir ki, bu adamlar bizim üçün arzuolunmazdırlar. Azərbaycan qanunvericiliyinə görə bu, cinayət əməli sayılır. Bu, ölkəmizin suveren hüquqlarına müdaxilədir. Lapşin hadisəsi də belə bir presedent yaratmalıdır ki, deputatların da mandatına və toxunulmazlığına baxmayaraq, qanun qarşısında cavabdehlik daşıyırlar. Əslində bu gün Krım hadisələrində gördüyünüz kimi , Ukrayna ilə bağlı Avropa Birliyi ölkələri öz parlamentarilərinə qadağan ediblər, onlar gedəcəkləri təqdirdə hansı cəzalar gözləyir. Biz də bu modeli tətbiq edirik. Azərbaycan əlahiddə olaraq özündən qanun yazmayıb. Bu məsələ ilə bağlı beynəlxalq praktikada hökm sürən reallıqlar, hüquqi prinsiplər var".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# ÜAK-ın yerində yeni diaspor təşkilatı yaradıldı

**Rusiyada qeydiyyatı ləğv edilmiş Ümumrusiya Azərbaycan Konqresinin yerində yeni Azərbaycan diaspor təşkilatı yaradılıb. Bu barədə APA-ya akademik Fazil Qurbanov məlumat verib.**



Fazil Qurbanov

Onun sözlərinə görə, yeni yaradılan təşkilatın Rusiyanın Azərbaycan Konqresi (Azerbaydcanskiy Konqress Rossii) adlandırılması təklif olunur: "Bu, mümkün variantlardan biridir. Rusiyanın 70 regionunda diaspor icması yeni diaspor təşkilatının yaradılması ilə bağlı mənə müraciət etdi. Həm də müraciət olundu ki, Rusiya prezidentliyinə namizəd Vladimir Putinə dəstək üçün təşəbbüs qrupu yaradaq. Biz belə qərara gəldik ki, hələlik təşkilat Rusiyanın Azərbaycan Konqresi adlansın. Eyni zamanda Vladimir Putinə dəstək qərargahı yaratdıq. Bu barədə Vladimir Putinin seçki qərargahına, Ümumrusiya Xalq Cəbhəsinə qərargahın yaradılması barədə müraciət etmişik".

F.Qurbanov deyib ki, artıq Rusiyadakı bütün Azərbaycan diaspor icmalarında Vladimir Putinin namizədliyinin dəstəklənməsi ilə əlaqədar qərargahlar yaradılıb.

**F.Qurbanov yeni diaspor təşkilatının yaradılması ilə bağlı yol xəritəsinin hazırlandığını, bu barədə məsləhətləşmələrin aparıldığını da qeyd edib:** "Yeni təşkilatın yaradılması üçün təsisçi olmalıdır, qurultay keçirilməlidir. Hazırda bu yöndə məsləhətləşmələr aparılır".

**F.Qurbanov V. Putinin namizədliyinin dəstəklənməsi ilə bağlı yaradılan qərargaha özünün rəhbərlik etdiyini qeyd edib:** "70 regionun hər birində yaradılan qərargahlara 3 nəfər daxildir. Qərargah "Rusiya azərbaycanlıları Vladimir Putini dəstəkləyir" devizi altında fəaliyyət göstərir. Qərargaha Rusiyada yaşayan tanınmış azərbaycanlılar, incəsənət, mədəniyyət, elm xadimləri daxildir".

# Rəsul Quliyevin Azərbaycana qayıdışı mövzusu qapanıb

## Keçmiş dövlət müşaviri: "Onun ölkəyə gəlib Ayaz Mütəllibov kimi sakit oturacağına təminat yoxdur"

**20 ildən artıqdır ABŞ-da yaşayan eks-spiker Rəsul Quliyevin yaxın aylarda Azərbaycana gələ biləcəyi barədə iddialar var. Həmçinin qeyd olunur ki, Rəsul Quliyevin son günlər Əbülfəz Elçibəy hakimiyyətinə və o zamankı yüksək vəzifəli məmurlara qarşı ard-arda sərt yazılarla çıxış etməsi də Bakıya dönüş planının tərkib hissəsi ola bilər.**

**Keçmiş dövlət müşaviri, politoloq Qabil Hüseynli** isə hesab edir ki, Rəsul Quliyevin Azərbaycana gəlişi mümkün deyil. Çünki bu məsələdə kompromisin olacağı ehtimalı sıfıra yaxındır: "Rəsul Quliyev özü kompromisə getməyə hazır ola bilər, bu istiqamətdə açıq və gizli mesajlar da Bakıya göndərə bilər. Bunun xatirinə müxtəlif siyasi qüvvələrə qarşı doğru və ya qeyri-doğru çıxışlar da edə bilər. Amma hakimiyyətin Rəsul Quliyevlə barışacağına və onun ölkəyə dönüşünə yaşıl işıq yandırılacağına inanmıram. Rəsul Quliyevin ölkəyə gəlib Ayaz Mütəllibov kimi sakit oturacağına təminatın olmadığını hakimiyyət bilməmiş deyil. Hesab edilir ki, Rəsul Quliyev gələndən sonra sakit oturacağına söz versə belə, bir müddət sonra sözünə əməl etməyəcək. Çünki o, təbiət etibarilə elə adamdır ki, mütləq siyasi aktivliyə və ya hər hansı bir siyasi karyera uğrunda mübarizəyə qoşulmağa həvəsli olacaq. Bu isə iqtidar üçün müəyyən problemlər yarada bilər. Bu və ya digər məsələlərə görə hesab edirəm ki, Rəsul Quliyevin qayıdışı reallaşmayacaq, bu mövzu qapanmışdır".

**Rəsul Quliyevin səlahiyyətli nümayəndəsi, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğluna suallar ünvanladıq. Ağasif Şakiroğlu "Yeni Müsavat"a bildirdi ki, ümumiyyətlə, Rəsul Quliyevin Azərbaycana gəlişi hər zaman gündəmdə olan məsələ olub və təbii ki, bu hər an baş verə bilər:** "Qarşıdakı aylarda Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları Məhkəməsində Rəsul Quliyevin hüquqlarının pozulması ilə bağlı qərar verməsi gözlənilir. Bu səbəbdən də Rəsul müəllimin gəlişi məsələsi öz aktuallığını qoruyub saxlayır və gündəmimizdədir. Rəsul Quliyevin Elçibəy hakimiyyətinin təmsilçiləri barədə yazdıqlarının Bakıya dönüşü planı ilə əlaqəli olduğu barədə iddialara inanmıram. Rəsul Quliyevi unikal edən onun axına qarşı getməsi olsa belə, hər zaman həqiqətləri söyləməsi və ərk etdiyi adamları dost kimi tənqid etməsi ilə bağlıdır. Bu tənqidlər də oradan qaynaqlanır. Amma kimlərsə düşünürsə ki, belə açıqlamalar Rəsul Quliyevin yolunu aça bilər, yanılır. Nə hakimiyyət uşaq deyil, nə də Rəsul Quliyev. İstisna deyil ki, hakimiyyət daxilində istər Rəsul Quliyevin, istərsə də digər siyasi mühacirlərin ölkəyə dönüşü barədə düşünə bilənlər var. Bu barədə Rəsul Quliyevlə aramızda hər hansı özəl bir danışıq olmasa da mən şəxsən dəqiq bilirəm ki, hakimiyyət daxilində kifayət qədər insanlar var ki, ölkəni gələcək fəsadlardan, xaosdan, siyasi-iqtisadi böhrandan qorumaq üçün müəyyən işlər görüblər və görəcəklər. Hesab edirəm ki, ölkəni gələcəkdə ola biləcək bəhs etdiyim böhrandan çıxartmaq üçün ilk öncə ölkədə demokratik mühitin formalaşdırılması lazımdır.



Bunun üçün ilk addım olaraq siyasi məhbuslar azad edilməli və siyasi mühacirlərin hamısının ölkəyə dönüb millətinə, xalqına xidmət etməsi üçün şərait yaradılmalıdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 31 (6920) 9 fevral 2018

# Azərbaycanın "qadın batalyonu"- feministlər...

## 2012-ci ildə Bakıda "Feminist Qadınlar Hərəkatı" adlı birlik təsis edilsə də, sonrakı illərdə təşkilatın fəaliyyəti müşahidə olunmadı

**Son illər ərzində dünyada feminist hərəkatının daha da geniş vüsət aldığının şahidi oluruq. Feministlər təkcə qadın hüquqları ilə bağlı məsələlərdə deyil, artıq bir çox siyasi proseslərə də müxtəlif formalarda öz etirazlarını bildirir, müəyyən qaydaların ləğvinə və yaxud yeni qanunların yaradılmasına çevrilir.**

Məsələn, bu günlərdə "Formula-1" rəhbərliyi feministlər üzündən avtopilotları yarış meydanına müşayiət edən "grid-girls", yəni "start qızlar"ın xidmətindən imtina etməli olub. Qeyd edək ki, bu ənənə on illərdir ki, davam edirdi. Feministlər bu ənənəni qadınların istismarı bərabərinə tutaraq öz etirazlarını bildirib. Nəticədə etirazlardan sonra "Formula-1" direktoru Şon Bratçes qeyd olunan ənənənin "brendin dəyərlərinə və müasir sosial normalara" zidd olduğunu bəyan edib. "Start qızlar" isə feministlərin bu yolla qadın haqlarının müdafiəsinə qalxmasını pisləyib, feministlərin onların "çörəklərinə bais olduğunu" bildiriblər.

Məlum olduğu kimi, feminizm hərəkatı daha çox Ukraynada müşahidə olunmaqdadır. Bu ölkənin feminist qadınları əsasən siyasi proseslərə çılpaq soyunaraq öz etirazlarını bildirir. Qeyd edək ki, bu növ etiraz dünya miqyasında çox geniş yayılıb və hər il daha da artmağa başlayıb. Həmin etirazın adı "nudizm"dir. Rusiyada da nudistlərin sayı durmadan artır. Hətta Rusiya prezidenti Putin bir neçə dəfə lüt etiraz edən feministlərlə qarşı-qarşıya gəlib. Bu cür olaylardan biri 2012-ci ilin 4 martında baş vermişdi. Moskvanın Qaqarin rayonunda yerləşən səsvermə məntəqəsinində gedən Putini feministlər gözləyib. Feminist qızlar lüt soyunaraq "Putin oğrudur, Putinin xeyrinə oğurlayıram" deyə, qışqıraraq seçki qutularını aparmağa çalışıblar. Putin isə buna təəccüblənmək əvəzinə, razılıq əlaməti olaraq hər iki əlinin baş barmağını yuxarı qaldırmışdı. Hətta Putin aksiyanı bəyəndiyini, mühafizəçilərin isə onlarla sərt davrandığını demişdi.

Ötən ayın 12-də isə Çexiyada prezident Miloş Zeman prezident seçkiləri ərəfəsində səs vermək üçün seçki məntəqəsinə gələrkən, feminist qız lüt soyunaraq öz etirazını bildirib.

**Feminizm nədir?**

Kiçik arayış verərək bildirək ki, feminizm fransızca "femin", latınca "femina" sözündən götürülüb, "qadın" deməkdir. Yarandığı gündən feminizm burjua quruluşu çərçivəsində qadınlarla kişilərlə bərabər hüquqlar verilməsi uğrunda mübarizə aparan ictimai hərəkatdır. Bu termini ilk dəfə işlədən, ixtira edən, "Qadının sosial vəziyyəti ictimai tərəqqinin meyarıdır" kəlamının müəllifi, utopik sosializm nümayəndəsi Şarl Furyerdir. Feminizmin ilk dalğası 18-ci əsrdən 19-cu əsrin birinci yarısına təsadüf edir. Feminist hüquqşünaslığı isə ilk dəfə elə həmin dövrdə ABŞ-da yaranıb. Feminizmin ilk sənədi Olimpiya de Quj tərəfindən yazılan "Qadınların və qadın vətəndaşların bəyannaməsi"dir.

20-ci əsrin 60-cı illərində artıq ABŞ-da və bir çox Avropa ölkələrində inkişaf edən qadın hərəkatı liberal feminizm kimi xarakterizə olunmağa başlayır. Bu istiqamətdə əsas məqsəd qadınların kişilər ilə bərabər siyasi hüquqa nail olmaqdır.

Qeyd etdiyimiz kimi, artıq dünyada feminizm daha çox inkişaf etməyə, müxtəlif qolları yaranmağa başlayıb. Bunlardan Bərabərlikçi feminizm (fərdçi, liberal), Qadın mərkəzli feminizm (mədəni, cinsiyyət, pop, radikal), Basqının ataxaqanlıqdan qaynaqlandığını qəbul edən feminizmi (anarko, rardikal) qeyd etmək olar.



**Bəs Azərbaycanda feminizm hərəkatı varmı?**

Qeyd edək ki, 2012-ci ildə Bakıda "Feminist Qadınlar Hərəkatı" adlı birlik təsis edilmişdi. Birliyin təsisçilərinin sözlərinə görə, təşkilatın yaradılmasında əsas məqsəd qadınların hüquqi maarifləndirmək və bu istiqamətdə qanunların tənzimlənməsini təmin etməkdir. Lakin sonrakı illərdə təşkilatın fəaliyyəti müşahidə olunmadı.

Bəzi sosioloqlar da qeyd edir ki, dünyanın bir çox ölkələrindən fərqli olaraq Azərbaycanda feminizm anlayışı bir qədər fərqli anlamda təqdim edilir. Belə ki, bəzən özünü feminist adlandıran qadınlar feminizmin istiqamətini ifrat dərəcədə dəyişdirir, sanki "kişi düşməninə" çevrilirlər.

**Mövzu ilə bağlı "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Yeni Müsavat"a danışıb:** "Gəlin baxaq görək cəmiyyət feminizm haqqında nə qədər məlumatlıdır və feminist deyəndə niyə qorxurlar? Bəzən bu addan dərhal imtina edilir. Qadın hüquqları ilə məşğul olanlar belə bəzən deyirlər ki, "yox, mən feminist deyiləm". Feminizm nədir? Bu anlayışın əsasında qadın-kişi hüquqları məsələsi durur. Sonradan feminizmin müxtəlif qolları yaranıb. Məsələn, çəhrayı, radikal feminizm kimi formalar var. Bu baxımdan daha çox eynicinslərin münasibəti məsələsini qabardan amillərə görə bir çoxları feminizmdən imtina edir, bildirir ki, "mən ailə qurmaq istəyirəm" və sairə. Bu da hətta bu sahədə çalışan insanların feminizmdən imtina etməsinə gətirib çıxarır.

Amma ölkəmizdə ayrı-ayrı təşkilatlar, qadınlar var ki, feminizmlə məşğul olur, eyni zamanda bu sahədə çalışırlar. Lakin qeyd edim ki, ölkəmizdə feminizm anlayışı zəifdir. Bu sahə ilə bağlı məlumatlı olmaq, oxumaq, nəzəri cəhətini bilmək, əsas ideologiyasını dərk etməklə bağlı problemlər var. Amma ümumən qeyd etmək lazımdır ki, qanunlarımızın özündə qadın-kişi bərabərliyi təbliğ olunur və bu da o deməkdir ki, Azərbaycanda feminizmlə bağlı heç bir əngəl yoxdur.

Bəzi hallarda belə bir fikir yayılır ki, qadınların üst təbəqə səviyyəsində işlərdə çalışması sonradan rolların dəyişməsinə gətirib çıxardacaq və kişilər dar çərçivəyə salınacaq, qadınlar hakimiyyəti ələ keçirəcək. Amma bizim istədiyimiz odur ki, qadın-kişi bərbərliyi olsun, ailədə, cəmiyyətdə bərabərsizlik aradan götürülsün. Nə də ki, doğru fikir deyil ki, "əgər qadın feministdirsə ailə qura bilməz". Axı nəyə görə qadın feministdirsə ailə qurmaqdan imtina etməlidir? Bu, yanlış təbliğatın nəticəsidir. İstənilən halda, bizim cəmiyyətimizdə qadın-kişi bərabərliyi ta qədimdən gələn bir məsələdir".

❑ **Xalidə GƏRAY, Musavat.com**

# Reket baş redaktorlara pullar necə axırmış-ilginc ifadələr

## Şahid: "Bir dəfə Bakıya gəlib ona 3500 vermişəm, iki dəfə də 600 manat..."

**Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) əməkdaşları tərəfindən həbs edilən və reket fəaliyyətində ittiham olunan "Gündəlik Bakı" qəzetinin baş redaktoru Habil Vəliyevin cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib.**

Musavat.com xəbər verir ki, işə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Fikrət Qəribovun sədrliyi ilə baxılıb.

Məhkəmədə Habil Vəliyev vəsatətlə çıxış edib. O, bundan sonra məhkəmə proseslərinin qapalı keçirilməsini istəyib: "Mənim ötən prosesdəki çıxışım, iradlarım mətbuatda yer almadı. Həm də mənim səhhətimdə problem var. Yazılanlar mənə pis təsir edir".

Məhkəmə vəsatəti təmin etməyib. Prosesin davamında DTX-nin həbs etdiyi "Bizim Dövr" qəzetinin baş redaktoru olmuş və hazırda cinayət işi ayrıca araşdırılan Surxay Əliyev şahid qismində ifadə verib. O, istintaqa ifadəsini təsdiqlədiyini və ittihamların yalan olduğunu söyləyib.

Digər şahid isə Surxay Əliyevin müavini olmuş Hikmət Nəcəfli olub. O, Habil Vəliyevi tanıdığını bildirib. Cinayət işi üzrə bir neçə epizodda onların adı ayrı-ayrı şəxslərin şantaj edilməsində keçir. Hatəm İbrahimovun rüsvayedici görüntülərlə şantaj edilməsi epizodu üzrə ifadə verərkən deyib ki, ittihamlar əsassızdır. O, H.İbrahimovun şantaj edilməsindən xəbərsiz olduğunu və istintaqdakı ifadəsini xatırlamadığını deyib.

Prosesin davamında şahid Rauf İsfəndiyarov ifadə verib və Habil Vəliyevi mətbuatdan tanıdığını deyib. O, Laçın Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Ramil Cəbrayılovun şantaj edilməsi epizodu üzrə dindirilib.

Şahid Habil Vəliyev istintaqdakı ifadəsini təkzib edib. Belə ki, R.İsfəndiyarov istintaqda deyib ki, 2011-ci ildən Habil Vəliyev icra başçısı haqda öz qəzetində silsilə yazılar yazıb. Bununla da ondan külli miqdarda pul tələb edib.

**R.İsfəndiyarov icra başçısının Habil Vəliyevə zərfdə pul göndərdiyini də istintaqdakı ifadəsində söyləyib:** "Mən rayondan gəlirdim. İcra başçısının istəyi ilə Malik Vəliyev mənimlə




birlikdə Bakıya gəldik. Bakıda Habil Vəliyevlə görüşdük və Malik pulu ona verdi".

R.İsfəndiyarov həkim olduğunu və icra başçısı ilə rayondan münasibətlərinin yarandığını deyib. O, DTX-də verdiyi ifadəsini təsdiq etmədiyini və Habil Vəliyevə pul verilməsindən xəbərsiz olduğunu söyləyib.

**Şahid Sadiq Əliyev də məhkəmədə şahid qismində dindirilib. O, Habil Vəliyevi bir dəfə gördüyünü deyib və bildirib ki, Zığda obyektdə işləyib:** "Obyektlə bağlı yazılar yazılırdı. Müdir Hatəm müəllim məni çağırdı ki, get maraqlan gör, bu haqda niyə yazılır. Mən də bir dəfə Bakıya gəlib onlarla görüşmüşəm. 3500 bir vermişəm, iki dəfə də 600 manat..."

Qeyd edək ki, H.Vəliyev Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat zamanı tutulub.

DTX-nin İctimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumata görə, qabaqcadan əlbir olan bir qrup şəxsin gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə qadınları digər şəxslərlə görüşdürüb, münasibətlərinin gizli videoçəkilişlərini aparması, onları şantaj etməsi, habelə ayrı-ayrı şəxslər barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mütəmadi olaraq mətbu orqanlarında dərc etdirib, bu fəaliyyətin dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb edilməsi və alınması, bu üsulla müxtəlif idarə və təşkilatlarda açalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması barədə daxil olmuş müraciətlər Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılarkən Azərbaycan Respublikası ərazisində "reket" nəşrlər yaradıb, bu nəşrlərin jurnalistləri adı altında fəaliyyət göstərən bir qrup şəxs və onlarla şəbəkə halında əlbir olan digər şəxslərdən ibarət cinayətkar dəstənin silsilə cinayət əməlləri ifşa edilib, qanunsuz fəaliyyətlərinin qarşısı alınıb.

❑ **İlkin MURADOV, Musavat.com**

YENİ MÜSAVAT
N 31 (6920) 9 fevral 2018

**Türkiyənin Kənd Təsərrüfatı Nazirliyi kəndlərdən şəhərə axının qarşısını almaq üçün maraqlı aksiyaya start verib. Belə ki, kənddən şəhərə gedən ailələr geri qayıtdıqları təqdirdə 300 baş qoyun alacaqlar.**

# Kəndə qayıdış niyə alınmadı- Türkiyə nümunəsi və biz...

## Qardaş ölkədə şəhərdən kənddə qayıdanlar 300 baş qoyun alacaqlar; **ekspert:** "Əlavə stimullaşdırıcı tədbirlərə kəskin ehtiyac var"

Türkiyənin kənd təsərrüfatı naziri Əşrəf Fakıbaba bildirib ki, kəndlərinə qayıdan fermer ailələrə 300 baş damazlıq qoyun veriləcək, heyvanlara baxanlar isə minimum əmək haqqı ilə təmin olunacaq: "Hər bir ailəyə 300 damazlıq qoyun veriləcək. 300 ədəd qoyun alan şəxslər həmçinin minimum məvacib alacaqlar. Onların sığortası da ödəniləcək. Yem, dərman, baytarlıq ehtiyacı yaranarsa, bu da təmin olunacaq. Sadəcə, kənddə ərazisi olanların mülkiyyət sənədini ipoteka olaraq alacağıq. Fermerlərə 300 qoyun və 300 bala veriləcək. Bu balaların hamısı fermerə aid olacaq. Geri ödəniş 300 ədəd doğulacaq quzu ilə başlayacaq. Bu balalar bir neçə aydan sonra hər biri 700-800 lirəyə (313-358 AZN) satıla biləcək. Bu isə il ərzində 210 min lirə (94 min 101 AZN) edir. Bu, böyük maliyyədir. Fermer istəsə, bu balaları bizə sata və borcunu ödəmiş ola bilər" (Xəzər-xəbər).



Onu da qeyd edək ki, Azərbaycanda da əhalinin kəndlərdən şəhərlərə, xüsusilə də paytaxta böyük axını müşahidə olunur. Bu şəraitdə əhalinin kəndlərə dönüşünü təşviq etmək üçün dövlət tərəfindən Türkiyədəki kimi stimullaşdırıcı tədbirlərə əl atılması mümkündürmü? Suala cavab verən **iqtisadçı-ekspert Pərviz Heydərov** deyir ki, Azərbaycanda kənd təsərrüfatının dirçəldilməsi başlıca prioritetlərdən biridir: "Azərbaycanda kənd təsərrüfatı istehsalının stimullaşdırılması qeyri-neft sektorunun inkişafı baxımından son dərəcə mühüm əhəmiyyətə malik məsələdir. Ölkə prezidenti də çıxışlarında dəfələrlə qeyd edib ki, qeyri-neft sektorunun iki əsas qolu var: biri sənayedir, digəri kənd təsərrüfatı. Bunlardan yalnız birini, tutalım, sənayeni inkişaf etdirməklə qeyri-neft sektorunun iqtisadiyyatdakı payını artırmaq mümkün deyil. Ona görə də kənd təsərrüfatı sənaye ilə bərabər səviyyədə tutulmalıdır. Kənd təsərrüfatının inkişafı qeyri-neft sektorunda əsas hədəf olmalıdır. Bu da əhalini aqrar sektora, burada məşğulluğa cəlb etməyi, kənd təsərrüfatı sahəsində sahibkarlığın inkişafını genişləndirməyə nail olmağı tələb edir".

**Ekspert bildirir ki, Azərbaycanda uzun illərdir kənd təsərrüfatı istehsalı torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddır:** "Bundan əlavə, prioritet elan olunan bitkiləri əkənlərə dövlət tərəfindən subsidiya verilir. Bura aiddir taxıl, pambıq, şəkər çuğunduru və sair. 2004-cü ildən bəri regionların inkişafına 4,5 milyard manat sərf olunub. Daha 368 milyon manat prezident tərəfindən rayon və şəhərlərin inkişafına ayrılıb. Bu vəsaitlər hesabına yollar çəkilib, təmir olunub, qazlaşdırma, enerji təchizatı aparılıb, səhiyyə, təhsil müəssisələri tikilib və sair. Yeni yaşayış və fəaliyyət üçün zəruri infrastruktur yaradılıb. Lakin bunlar kifayət etmir. Bu gün əmək qabiliyyətli əhalinin 40 faizi bölgələrdə yaşayır. İşsizliyin ən yüksək olduğu ərazilər də məhz bölgələrimizdir. Ölkənin az qala bütün iqtisadi potensialı Bakı şəhərində cəmləşib, dövlət büdcəsinin 80-90 faizi Bakıda təmin olunur. Son illərə qədər ölkənin cəmi 6 şəhəri öz-özünü təmin edirdi, son 2 ildə onların sayı 30-dək artıb. Buna görə də regionlardan iş arxasınca şəhərə axın dünən də vardı, regionların sosial-iqtisadi inkişafı məqsədilə 3 dövlət proqramının icra olunmasına baxmayaraq, bu gün də müşahidə edilməkdədir. Ona görə də əhalini kənd təsərrüfatı istehsalına cəlb etmək üçün əlavə stimullaşdırıcı tədbirlərə ciddi ehtiyac var. Çox istəyərdim ki, bu tədbirlər xüsusi dövlət proqramı çərçivəsində həyata keçirilsin. Bu tədbirlər nədən ibarət ola bilər? İndiyədək həyata keçirilən tədbirlər öz yerində, onların yüksək əhəmiyyətini vurğulamaqla yanaşı, qeyd etmək istəyirəm ki, bunlar yetərli deyil. Türkiyədə, Avropada, İsraildə çox gözəl stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bu təcrübələrin dərindən öyrənilərək analiz edilməsi və ölkəmizdə də analoji tədbirlərin hazırlanıb həyata keçirilməsi çox vacibdir. Bunu gecikdirmək olmaz. Çünki ötən il ölkədə 14 faizə yaxın olan inflyasiyanın lokomotivini ərzaq məhsullarının bahalaşması təşkil edib. Ən çox idxal inflyasiya məhz ərzaq məhsulları vasitəsilə baş verir. Buna görə də biz daxili bazarı qorumaq, maliyyə sabitliyimizi təmin etmək, inflyasiyanın qarşısını almaq üçün kənd təsərrüfatı məhsullarının istehsalını artırmalıyıq. Bunun üçün də aqrar sektorda stimullaşdırma dövlət siyasəti şəklində hazırlanıb həyata keçirilməlidir. Bu siyasət həm də xaricdən xammal idxalının məhdudlaşdırılması ilə müşayiət olunmalıdır".

**P.Heydərovun fikrincə, stimullaşdırma tədbirləri ilə yanaşı, inhisarçılığın da qarşısı alınmalıdır:** "Aqrar istehsalda inhisarlaşmanın qarşısı alınmalıdır. İmkanlı birinin camaatın torpaqlarını satın alıb təsərrüfat qurması digərlərinin işsiz qalaraq şəhərlərə üz tutması ilə nəticələnir. Belə hallara yol verilməməlidir".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Amerikadakı ölümcül qripin ölkəmizə gəlmə riski var - həkimdən SOS !

## **Vaqif Qarayev:** "Bu, çox qorxulu virusdur..."

**ABŞ-da tüğyan edən qrip can almaqda davam edir. Artıq oktyabr ayından bu günə qədər 53 uşaq dünyasını dəyişib ki, onların da 16 nəfəri son bir həftədə xəstəliyin qurbanı olub.**



ABŞ Xəstəliklərin Yoxlanışı və Mühafizəsi Mərkəzindən (CDC) verilən açıqlamaya görə, bu rəqəm 2010-cu ildən bəri qeydə alınmış ən pis nəticədir. Belə ki, son 2 ildə H3N2 virusu daha geni yayılıb və əsasən uşaqlar, ahıl insanlar bu xəstəliyin qurbanı olur. Rəsmilər artıq ABŞ hökumətinin qriplə mübarizə üçün tədbirlər alacağını vurğulayıb və insanlardan xəstəlikdən mühafizə üçün məsələyə ciddi yanaşmaq tələb edilib.

Qeyd edək ki, qripdən ölüm hallarının artması digər dünya ölkələrini, o cümlədən Azərbaycanı da narahat etməyə başlayıb. Bəs bu virus ölkəmizə də ayaq basa bilərmi?

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan tanınmış həkim Vaqif Qarayev bildirdi ki, bu il ABŞ-da yayılan H3N2 virusunun bəlli bir ştammı üzə çıxıb:** "Bu təzə xəstəlik deyil. İki-üç il əvvəl də bu cür xəstəlik yayılıb və həmişə də ölümcül olub. Builki ştammı isə daha çox uşaqları və ahıl yaşda olan insanları tutur və ölüm halları az deyil. Bu, qorxulu virusdur. Ölkəmizə gəlib çıxma ehtimalına gəlincə, qeyd edim ki, əgər ABŞ-dan kimsə bu virusla Azərbaycana gələrsə, yayılma ehtimalı əlbəttə ki, var. Lakin düşündüyüm qədər ABŞ ölkənin giriş-çıxışına ciddi nəzarət edəcək. Lakin fakt budur ki, təhlükə, ölüm halları var. Azərbaycanda yayılan virusa gəldikdə isə bu günlərdə rəsmi açıqlama verilərək bildirildi ki, yayılan qrip deyil, paraqripdir. Yəni bu xəstəliyi törədən ayrıca virusdur".

**Həkimin sözlərinə görə, ölkəmizdə yayılan virus təhlükəli deyil:** "Onlardan eləsi var ki, yalnız qızdırma-mədə bağırsaq pozğunluğu ilə, digərləri qızdırma-səpki ilə, yəni ayrı-ayrı virusların qarışığı ilə müşahidə olunur. Lakin şükürlər olsun ki, ölüm hadisəsi yoxdur. Ölkəmizdə hazırda müşahidə edilən virusların uzunmüddətli olur. Bu da insanları narahat edir. Bu zaman mütləq şəkildə həkimə müraciət etmək lazımdır. Yəni istənilən virus 7 gün ərzində yaşayıb, sonra getməlidir. Lakin bu müddətdən uzun çəkirsə, deməli, bununla bağlı başqa məsələlər var. Ona görə də xəstə mütləq şəkildə həkimə müraciət etməli, müayinə və müalicə almalıdır. Özbaşına müalicə bəzən böyük fəsadlara gətirib çıxarır. Bəzən görürük ki, valideynlər virusa qarşı övladlarına antibiotik dərmanlar verir. Lakin antibiotiklər xəstəliyi yaradan səbəbin üzərinə gedir, virusa təsir etmir. Bir sözlə, xəstəlik ayrı, virus ayrıdır".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

**Elan**

**Hacıyev Müşfiq Əsəd oğlunun adına Aqrar İslahatlar Komissiyasının 14 may 1999-cu il tarixli, 50 nömrəli qərarı ilə verilmiş, Göyçay rayonu Potu kəndində yerləşən 0.2042 ha həyətyanı torpaq sahəsinin şəhadətnaməsi (reyestr nömrəsi: 40801004103488) itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 31 (6920) 9 fevral 2018




# Dünya: yardımçı, ya qərq edən?!

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! İnsanın mənəvi mühitdə yaşaması - öz-özünə baş verən bir avtomatik məsələ deyil. İnsan gərək səy etsin, öz ətrafında mənəvi mühitin, təmizləyici bir auranın yaranmasına öz töhfəsini versin. Bu töhfəni vermək üçün isə Allah Təala insana kifayət qədər imkanlar təqdim etmişdir. Bu fürsətləri görmək və gündəlik həyatda İlahi nemətlərdən yararlanmaq imkanı isə insanın iradəvi fəaliyyətindən asılıdır.**

Allah Təala cəmi insanları bu fürsətlərdən ən gözəl şəkildə istifadə edənlərdən qərar versin, inşəallah!

## Ümmətin süst məqamı

**Günlərin birində Peyğəmbərimiz (s) üzünü səhabələrinə tutub buyurmuşdur:** "Tezliklə millətlər, ac adamlar yemək kasasına hücum edən kimi, sizə hücum edər».

**Bu zaman bir nəfər soruşdu:** "Bunun səbəbi həmin vaxt bizim sayımızın az olmasıdırmı?».

**Həzrət Peyğəmbər (s) buyurdu:** "Əksinə, sayınız çox olar, amma sel üzərindəki köpük və çör-çöp kimi olarsınız, Allah sizin heybət və əzəmətinizi düşmənlərinizin qəlbindən çıxarar, sizin qəlblərinizə qüvvətsizlik və süstlük salar».

**Dinləyənlərdən bir nəfər soruşdu:** "Ey Allahın Rəsulu! Qüvvətsizlik və süstlük nədir?».

**Buyurdu:** "Dünya məhəbbəti və ölümdən çəkinmək, qorxmaq».

Sanki günümüz üçün deyilmiş sözlərdir. Artıq Qarabağın, Qüdsün işğalı adiləşmişdir ümmət üçün. Erməni işğalçıları həqarət edirlər, torpaqlarımızın qayıtmamağı barədə bəyanatlar verməyə cürət edirlər. Sionist vandalları dünyanın gözü önündə fələstinli körpələri qanına qəltan edir, ümmət isə sanki ağzına su almış kimi susur.

Türk millətini soyqırımda ittiham edirlər, erməni təxribatçılığının aradan qaldırılmasını soyqırım aldandırıb türkü aşağılamaq istəyirlər, özü də bunu rəsmi səviyyədə edirlər, ümmətdən səs çıxmır ki, çıxmır. Özlərinin min bir cinayət törətmələrinə, xalqları qırıb, torpaqları viran etmələrinə rəğmən, türkü soyqırım törədən şəklində təqdim edib alçaldırlar. Peyğəmbərimizin (s) müqəddəs şəxsiyyətinin müxtəlif zatı haram ünsürlər, mürtədlər tərəfindən təhqir edilməsi elə bil adiləşib artıq. Yavaş-yavaş müsəlmanları sanki öyrəşdirirlər laqeydliyə, vecsizliyə. Yavaş-yavaş müsəlmanların yadından çıxardırlar onların kimliyini. Dünyanın hədəf yox, bir vasitə olduğunu unutdurmağa çalışdılar müsəlmanlara. Dünyanın axirət üçün əkin yeri olduğunu unutdurdular böyük bir qisim müsəlman üçün.

Əksinə, dünyanı hədəf olaraq seçdi özünə müsləmanlar. Dünyanın aldadıcı lşirinliyinə» aldanaraq, yüksək amallar, məfkurə üçün həsr etmədilər ömürlərini. Ölümdən qorxdular, ölümün həyatın bir formasından digərinə keçid olmasını unutdular, ölümü mövcudiyyətin sonu kimi qəbul etdilər müsəlmanlar.

Belə unutmalar izsiz keçmədi. Yalnızca unutmaqla iş bitmir ki! Bu unutqanlıq qəlbləri hisləndirdi, paslandırdı. Bu unutqanlıqlar heybəti və zəhmi yuyub apardı müsəlmanların qəlbindən. Ətalət və süstlüyü, laqeydliyi doldurdu qəlblərə. Müsəlmanların əzəməti və xofu götürüldü düşmənlərin gözündən. Müsəlmanların sayı çox oldu, amma sel üzərində köpük kimi təsirsiz oldular.

Acı reallıq odur ki, bu qədər insanın gözü önündə baş verir bəşəri cinayətlər, müsəlman torpaqlarının - Qarabağın, Qüdsün və digərlərinin işğalı davam edir. Bunun da hamısının bir səbəbi, bir adı var - biganəlik.

## Qəlb riqqətini qorumaq

İslami kimliyini yada salmaqla insan öz təqdiratını müəyyən edir. Nəinki tək fərd olaraq öz təqdiratını müəyyən etməklə iş bitir, bütövlükdə ümmətin təqdiratı asılıdır hər bir insanın özünə nəzər yetirməsindən. Haradan gəldiyini, harada olduğunu, haraya gedəcəyini düşündükdə, bu vücudi suallara diqqət yetirdikdə, bunlardan irəli gələn nə etməli olduğu sualına cavab axtardıqda, vəzifəsini, təklifini müəyyən etdikdə - həqiqətdə müsəlman ola bilir insan.

Mübarək mahiyyət var bu axtarışlarda. İpəkqurduna bənzəmək istəməyən bəndənin, İNSAN olmaq istəyən, ruhu təmiz, qəlbi gözəlliklərlə dolu bir durumda Rəbbinin hüzurunda durmaq istəyən bəndənin həyəcanı var burada.

Hər bir kəs ki, hidayət olmaq istəyir, İslam dini onun bütün vücudi suallarını cavablandırmağa hazırdır. Təki insan haqqa doğru qayıtmaq istəsin, onu düşündürən hər bir problemin həllini dində mütləq tapacaqdır.

Müqəddəs dinimizin insan yetişdirmək konsepsiyasında mərkəzi yeri məhz qəlbin durumu tutur. İnsan zahirdə çox gözəl işlər görə bilər, təqvalı görünə bilər. Amma qəlbi yumşaq saxlamaq, həssas olmaq, laqeydlikdən uzaq olmaq - insanın bəndə dərəcəsinə yetişməsi üçün əsas şərtlərdəndir.

Dinimiz qəlbin həssaslığına böyük yer ayırmışdır. Möminlərin Əmiri Həzrət Əlinin (ə) bütün həyatı bu qəlbiyumşaqlığa misaldır. Həmin Əli (ə) ki, düşmənlərlə döyüşdə hamıya nümunə idi, qabağında dayanan yox idi.

O Əli (ə) ki, Xəndək döyüşündə müşrik ordusunun ən aparıcı şəxslərindən olan lənətlik Əmr ibn Əbdüvədə vurduğu qılınc zərbəsini Həzrət Peyğəmbər (s) misilsiz adlandırmışdır - həmin o Əli (ə) yetimi görəndə riqqətdən dizləri əsirdi. Hər işini atıb, yetim uşağı ovundurmaq, könlünü almaq üçün əlindən gələni edirdi.

Həmin Əli (ə) elmdə də birinci idi, ailə qayğısına, övladlarına nəvazişdə də birinci idi, nümunəvi həyat yoldaşı idi, ədalətdə, əxlaqda, mənəviyyatda, ibadətdə, ixlasda da birinci idi.

Rəsuli-Əkrəmin (s) kamil insan yetişdirmək məktəbinin ən gözəl yetirməsi idi Həzrət Əli (ə). Və hər şeydən öncə, bu kamillik zəiflərə, yetimlərə, yoxsullara, ahıllara münasibətdə özünü ən parlaq surətdə göstərir. Cəmiyyətin ən müdafiəsiz üzvlərinə xüsusi diqqət və məhəbbətdə təzahür edilir Əli (ə) kamalı, Əli (ə) dühası. Allah Təala hər bir mömini bu yolla getməyə müvəffəq etsin!

## Qəlbi əsir edən bütlər

Ariflərimiz kamil insan anlayışını çatdırmaq istədikdə, qeyd edirlər ki, kamil insan - həyatın bütün səhnələrinin qəhrəmanıdır. Evdə, çöldə, cəmiyyətdə, hər bir vəziyyətdə, hər bir rəftarında, həyatın hər bir sahəsində: istər elm, istər əmək, istər mücadilə olsun - hər bir işdə qabaqda olmalıdır kamil insan. Ən səbirli, ən şücaətli, ən savadlı, ən əxlaqlı, ən təqvalı olmalıdır kamil insan.

Qəbul etmir yarımçılığı dinimiz. Əgər insan iddialıdırsa təqvalılığa, cəmiyyətin işlərində də fəal iştirak etməlidir. Və əgər fəal insandırsa, mütləq təqva və əxlaqda da müvafiq duruma malik olmalıdır.

Heyifdir bu həyat ki, insana bir dəfə verilir, onun-bunun nökərliyində, zəlalətdə keçirilsin. Heyifdir bu həyat zombiləşmiş bir durumda - işdən-evə, evdən-işə, həftədə 1-2 dəfə də eyş-işrətdə keçirilsin. Heyifdir bu İlahi əmanət ki, boş-boş məşğuliyyətlərdə israf edilsin!

Sındırılmalıdır insanı əsir edən vərdiş bütləri. İnsanı inkişaf etməyə qoymayan, onu işlək heyvan tək başını qaldırmadan qarnını doydurub, nəfslərini xoşhal etməyə görə çalışmağa vadar edən stereotip və komplekslər rədd edilməlidir.

Əziz Peyğəmbərimiz (s) təkcə Kəbə evini tutan bütləri sındırmadı ki! Cahiliyyət dövrünün nə bütü var idisə, hamısın sındırdı Allah Elçisi (s). Qız uşağını diri-diri torpağa basdırmağa, qadına əşyatək münasibət bəsləməyə, savadsızlığı dəbə mindirən, adam öldürməyi şücaət bilməyə rəvac verən vəhşi ənənələri sındırdi Peyğəmbərimiz (s). Həzrət Xədicə (s.ə), Həzrət Fatimə (s.ə), Həzrət Zeynəb (s.ə) fenomenləri çıxdı ortalığa. Həzrət Əli (ə), İmam Həsən (ə), İmam Hüseyn (ə) kimi nümunələr təqdim edildi bəşəriyyətə. Bunlardır İslam, budur İslam.

İndi zaman-zaman müxtəlif xurafatçılar gəlib İslam pərdəsi altında cahiliyyətə xas vandallıqları bərpa etməyə cəhd edirlər. İfşa olunmalıdır onlar. Müqəddəs dinimizin adına nə mənfiliyi çıxmaq istəyirlərsə-istəsinlər, bu, baş tutan deyil, inşəallah. İslamın parlaq günəşi onsuz da qara buludların arxasından parlayacaq və ona yapışdırmaq istədikləri çirkinlikləri rədd edəcəkdir!

## Dünyaya məhəbbət qəlbi kar edər

Hər gün sındırılmalıdır bu bütlər. Sındırılmalıdır tənbəllik, məzlumluq, laqeydlik, biganəlik, rəhmsizlik bütləri, insanın vücudunu buxovda saxlayan cahillik və nadanlıq bütləri. Ən təhlükəli bütlərdən biri də vərdiş bütüdür. İnsan öyrəşir nəyisə necəsə etməyə. Və düşünmür ki, Allah necə istəyir. Düşünmür ki, Allah ondan nə istəyir. Deyir, lmən filan şeyə adət etmişəm». İnkişaf yoxdur mənfiliklərə adət etməklərdə.

İnsan gərək adət etsin özünü təftiş etməyə, hərəkətlərinə tənqidi yanaşmağa, düşünməyə, təhlilə. İnsan gərək vərdiş etsin əxlaqlı davranmağa, mənəviyyatlı rəftar etməyə, qohumlarla əlaqəni kəsməməyə, yaxşılıq etməyə, qəlbi yumşaq saxlamağa, yetimə qayğı göstərməyə. Belə adətlər, belə vərdişlər mələkə olduqda, insan vücudunun ayrılmaz hissəsinə çevrildikdə - burada inkişaf var, tərəqqi var.

**Öncə qeyd etdik ki, insanın süstlüyünün əsas baiskarı - dünyaya məhəbbətdir. Yəni insan vərdiş edir dünyanın aldadıcı parıltısına, davam gətirmir bu virtual təzyiqə. Nəticədə də, süstlük və laqeydlik bürüyür onun vücudunu. Böyük İslam Peyğəmbəri (s) buyurmuşdur:** "Dünya məhəbbəti hər bir asiliyin kökü və hər günahın başlanğıcıdır».

**Əgər dünya vasitədən məqsədə çevrilirsə, bu halda günahın başlanğıcı olur. Həzrət Əli buyurur:** "Dünyaya məhəbbət ağlı zay, qəlbi kar edər, (insanın) qəlbi hikməti eşitməz və (bu vəziyyət) ağrılı əzaba səbəb olar».

Dinimiz insanın gözünü açır dünyaya bağlılığın özü ilə gətirdiyi fəsadlara. Düşünən insan bunlardan ibrət götürməlidir.

## Axirətin əkin yeri

Maraqlı cəhətdir ki, ldünya» məfhumu dinimizin məntiqində həm mənfi, həm də müsbət mənada işlədilir. Burada əsas məqam - dünyaya düzgün münasibətdir. "Dünya - axirətin əkin sahəsidir» - buyurmuşdur Böyük İslam Peyğəmbəri (s).

**Həzrət Əlidən (ə) nəql edilən hədisdə dünyanın digər təyinatları açıqlanır:** "Həqiqətən, pak və müqəddəs Allah dünyanı, (dünyadan) sonra üçün yaratmışdır. Dünya əhlini burada imtahana çəkir ki, kimin ən yaxşı əməl sahibi olduğu məlum olsun. Biz dünya üçün yaradılmamış və burada qalıb çalışmağa əmr olunmamışıq».

**İmam Muhəmməd Baqir (ə) buyurur:** "Dünya axirət üçün necə də gözəl köməkçidir!»

Beləliklə, dünya insanların istedadlarının açıqlanması, üzə çıxması, yaxşı əməl sahibinin pis əməl sahibindən fərqlənməsi, axirət azuqəsi toplamaq məkanı, xoş aqibətlə rastlaşmaq, nicata yetişmək üçün müvafiq şəraitin təqdim edildiyi yer kimi səciyyələnən çox nəcib bir kateqoriyadır. Dünya insanın durumunun, qabiliyyətlərinin realizəsi üçün ən gözəl fürsətlər təklif edir. Amma burada qalmaq missiyası yoxdur insanın.

Əgər insan dünyanı hədəf seçir**sə, vəziyyət tam dəyişir. Belə halda dünya nemətlikdən çıxıb, zəlillik mənbəyinə çevrilir. Rəsuli-Əkrəm (s) buyurmuşdur:** "Dünya lənətlənmişdir. Allahın razılığını qazanmaq üçün vasitə olan hər bir şeydən başqa, dünyada olan nə varsa, hamısı lənətlənmişdir».

**Həzrət Əlidən (ə) nəql edirlər:** "Dünya - ən alçaq, aşağı şey olduğu üçün ldünya» adlandırılmışdır. Axirətə isə, orada əvəz və mükafat olduğuna görə laxirət» deyilir».

**İmam Səccad (ə) buyurmuşdur:** "Dünya iki növdür: axirətə çatdıra biləcək hədd olan dünya və bir də (axirətdən çəkindirən) lənətlənmiş dünya».

İnsana hər məlumatı təqdim etmişdir Mütəal Allah. Yaxşını seçsə, Peyğəmbər (s) və Əhli-Beytinə (ə) qovuşar. Pisi seçsə, lənətlik yezidlərlə, müaviyələrlə, əbuləhəblərlə bir yerdə olar.

## Dünya kölgə kimidir

**Dünyadan uzaqlaşan kəsə dünya xidmətçidir. İslam Peyğəmbəri (s) buyurur: lAllah Təala dünyaya vəhy etdi:** "Sənə xidmət edən kəsi əziyyətə sal, səndən uzaqlaşana isə xidmət et»».

**Dünyanın məsəli kölgə təkidir. Ona çatmaq istəyən hər zaman əliboş olar. Ona əhəmiyyət verməyən isə muradına çatar. Həzərt Əli (ə) buyurur:** "Dünyanın məsəli kölgəyə bənzər. Sən dayansan, o da dayanar. Əgər dalınca getsən, səndən uzaqlaşar».

**Dinimizin nəzərində dünya bir əfi ilan kimidir. Başa düşməyən, onun daxilində olan ölümcül təhlükəni görməz. Özü də bu ölümcüllük ən mühüm bir məsələyə aiddir - insanın əbədi aqibətinə təsir göstərir. İmam Museyi-Kazımdan (ə) nəql edirlər:** "Dünya ilana bənzər. Ona sığal çəkərkən (dərisinin) yumşaqlığını hiss edirsən, amma onun daxilində öldürücü zəhər var. Ağıllı insanlar ondan çəkinər, uşaqlar isə ona tərəf əl uzadarlar».

İslam məntiqinə görə, dünyaya aludə olan şəxs əqli həddi-büluğa çatmamışdır, bir uşaq kimidir. Bəyəndiyi şeyə əl uzadır və onda olan təhlükəyə əhəmiyyət vermir.

**Digər yerdə dinimiz dünyadan doymaq istəyənin xam xəyala qapıldığını vurğulayır. İmam Museyi-Kazım (ə) buyurur:** "Dünya dəniz suyuna bənzər. Təşnə (susuz) insan ondan nə qədər içərsə, susuzluğu daha da artar və axırda onu öldürər».

**İmam Kazımdan (ə) nəql edilən digər hədisdə bildirilir:** "Loğman öz oğluna dedi: lDünya dərin dənizə bənzər, çox insanlar onda qərq olublar. Buna görə (xilas olmaq üçün) sənin bu dənizdə (mindiyin) gəmi gərək İlahi təqva, onun yükü - iman, yelkəni - təvəkkül, kapitanı - ağıl, yol göstərəni - elm və sükanı da səbir olsun»».

Ümmət istəyirsə süstlükdən, qüvvətsizlikdən qurtulsun, gərək Həzrət Loğmanın tövsiyələrinə diqqət yetirsin. Allah Təala cəmi insanlara bu tofiqatı qismət etsin!

**Allahım, bizləri qəlb riqqətinə, İslami rəhmə malik olanlardan, təqva nemətinə, iman yükünə, əql və helmə, təvəkkülə sahib olanlardan qərar ver!**

**Allahım, bizləri Həzrət Peyğəmbər (s) və Əhli-Beytin (ə) həqiqi davamçılarından qərar ver!**

**Allahım, işğal altında olan torpaqların, ibadətgahların tezliklə qəsbdən qurtulmasını, 12-ci İmam - Həzrət Mehdi Sahib əz-Zamanın (ə.f) tezliklə zühur etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 31 (6920) 9 fevral 2018

# Trampın başındakı keçəl ən populyar video oldu

Twitter-də ABŞ prezidenti Donald Trampın təyyarənin trapına doğru qalxarkən külək əsməsi nəticəsində başındakı keçəlin görünməsi videosu populyarlıq qazanıb. Rolikin fraqmentini jurnalist Eşli Faynberq yayıb, 3.5 min retvit və 7.2 min layk yığan videoda haqqında bəhs edilən olay 2 fevralda, Tramp istirahət günlərində Floridaya uçan zaman baş verib. Reportyor eyni zamanda fotobankdan bir neçə foto da tapıb ki, onların hər birində prezident yandan çəkilib. Jurnalist Kler Marnir isə öz növbəsində bu populyar posta şərh verməkdən utanıb. Deyib ki, “Bizim edə biləcəyimiz şey bu kişinin başındakı tüklərin vəziyyətini müzakirə etməkdir. Bir çox şeylər inkişafın səviyyəsindən xəbər verir”.



# Dostunu xilas etdi, özü dünyasını dəyişdi



Nyu-Yorkun 11 yaşlı sakini Entoni Peres 12 yaşlı dostu Juan Umpierrezi xilas edərkən dünyasını dəyişib. Bu barədə “The Daily Mail” qəzeti xəbər verib. İnsident Mertl-Avenyu rayonundakı Forest parkında baş verib. Oğlanlar dərsdən sonra gölün yanında oynayarkən onlardan biri suya düşüb. Peres dostuna yardım üçün suya hoppandı, onu xilas etməyi basardı, amma daha sonra özü gölməçəyə düşdü.

Hadisə yerinə gələn xilasedicilər uşağı buzlu göldən xilas etməyə çalışıblar. Onu sahilə çıxarında isə fərqinə varıblar ki, oğlan artıq nəfəs almır. Onu apardıqları xəstəxanada isə həkimlər ölümü qeydə alıblar. Nəşr eyni zamanda qeyd edib ki, iki xilasedici soyuqdəymədən dünyasını dəyişib. Xilas olan oğlan isə dostunu itirdiyinə görə ciddi sarsıntı keçirib. Hadisənin ardınca Nyu-Yorkun yanğınsöndürmə departamenti valideynlər üçün bildiriş yayıb. Sözügedən bildirişdə qeyd olunub ki, xüsusən qış fəslində çay, göl və gölməçələrin yanında oyun oynamaq təhlükəlidir və uşaqları bu məkanlardan qorumaq lazımdır.

# Pendirə görə ağlayan qadın

İsveçin Bari şəhərinin sakini panikalı xəstəliyi barədə jurnalistlərə danışıb. “The Daily Express” qəzetinin məlumatına görə, 33 yaşlı Anna Bondesson bildirib ki, pendirin bir növü onu ağlamağa vadar edir. Biznes analitik kimi çalışan qadın qorxusunun təbiətini izah edə bilmir. Fobiyasını isə əyləncəli hesab edərək, onunla mübarizə etməyi düşünmür. Bondesson deyib ki, məhz bu səbəbdən marketlərin pendir şöbəsinə ayaq basmır. Səbəb “o sarı, iyli zəhər”lə qarşılaşmamaq istəyidir. Qızın sözlərinə görə, başqaları pendir yeyəndə o, özünü həyəcanlı hiss edir: “Bir dəfə iş yoldaşım mikrodalğalı sobaya pendirli piroq qoydu ki, qızdırsın. Az keçmədən onun qoxusu yayıldı və mən panikaya qapıldım”.

Qadın bu qorxusuna görə sevgilisi ilə ayrılmaq zorunda qalıb: “Bir dəfə mən onun evinə qonaq getmişdim. O, qonaq otağına əlində pendir dolu boşqabla girdi və mənə onu tutmağımı dedi. Mən otaqdan ağlayaraq çıxdım və təbii ki, biz bir daha görüşmədik”.



# 4 uşağı var, dördünün də bir-birindən qəribə adı

Çinin Şandun bölgəsində 27 yaşlı qadın Li Tsyuanın dördəmləri dünyaya gəlib. İkisi qız, ikisi oğlan olmaqla 4 uşağını eyni gündə, qeysəriyyə əməliyyatı ilə dünyaya gətirən qadın onlara qəribə ad seçib. Belə ki, uşaqlar Şimal, Cənub, Qərb və Şərq adlandırılıb. Ana məktəbdə müəllimə işləyir, bir neçə il öncə ailə həyatı qurub. Əri də, özü də övlad arzulayan cütlük uzun müalicədən sonra buna nail olub. Hamiləliyin 9-cu həftəsində qadına dördəm anası olacağı bildirilib. Uşaqlar hamiləliyin 33-cü həftəsində, yarımçıq doğulublar. Ən balaca körpənin çəkisi 1.75 kilo olub. Körpələrin daxili orqanları inkişaf etməyib. Ona görə də körpələr minimum bir ay müddətində intensiv müalicə şöbəsində qalacaqlar. Bu il Çin qanunvericiliyində müvafiq düzəliş edilib ki, ailələr iki uşaqdan artıq dünyaya gətirə bilməzlər. Bundan öncə isə 1970-ci illərdə ölkədə “bir ailə-bir uşaq” modeli hökm sürürdü.

# Qoroskop




QOÇ - Heç nədən çəkinməyin. Əmin olun ki, qarşınızda duran bütün maneələri dəf etməyə gücünüz yetəcək. Bir şərtlə ki, günaha batmayasınız. Saat 16-dan sonra yeniliklər gözlənilir.

BUĞA - Hər bir qərarda imanlı olmağa çalışın. Kimisə acılamaq, zəif tərəfindən vurmaq, passivlikdə günahlandırmaq olmaz. Ümumiyyətlə, ünsiyyətdə ədalət prinsiplərindən qidalanın.

ƏKİZLƏR - Gələcək üçün nəzərdə tutduğunuz planları indidən götür-qoy etməlisiniz. Bu istiqamətdə müəyyən məsləhətləşmələr aparmaq da olar. İşdən sonra sevgi görüşləri səmərəlidir.

XƏRÇƏNG - Ətrafınızda baş verən hadisələrin məcrasından çıxması ovqatınızı aşağı salmamalıdır. Axı həyatın enişi də, yoxuşu da labüddür. Əsas planları günün ikinci yarısına saxlayın.

ŞİR - Fəaliyyət istiqamətində tənbəlliyi bir kənara atıb aktivliyinizi artırın. Ətrafınızda olanları başa düşməyə çalışın. Ola bilsin ki, gün ərzində müəyyən gəlir də əldə edəsiniz.

QIZ - Hansısa yeni işlərə başlamaq, uzaq yola çıxmaq, riskli pul sövdələşmələri aparmaq yolverilməzdir. Çünki bu gün daxili enerjiniz yalnız gündəlik qayğılarla məşğul olmağa yetəcək.

TƏRƏZİ - Bu gündən fevral ayının uğurlu zaman kəsiyinə daxil olacaqsınız. Odur ki, donub qalan bütün planlarınızı hərəkətə gətirməlisiniz. Tək əldən səsin çıxmadığını da nəzərə alın.

ƏQRƏB - Günün ümumi mənzərəsi düşərli görünür. Bu isə hər bir məsələdə şansların olacağını bildirir. Odur ki, aktivliyinizi artırmalısınız. Saat 17-dən sonra bütün dəvətləri təxirə salın.

OXATAN - İş rejimi imkan versə, fəaliyyətə ara verib müqəddəs ziyarətgahlarımıza, dünyadan getmişlərinizin qəbirlərinə baş çəkin. Axşama yaxın bir neçə yeniliyin şahidi olacaqsınız. Əşyalarınızı qoruyun.

OĞLAQ - Hər bir hərəkətinizi tənzimləməyə çalışın. Xüsusən də həmkarlarınızla münasibətdə mülayim olun. Əks təqdirdə, saat 12-16 aralığında qalmaqalla üzləşməli olacaqsınız. Savab işlərinizi artırın.

SUTÖKƏN - Əgər daxili orqanlarınız qaydasındadırsa, qripdən uzaqsınızsa, gün ərzində hansısa problemlə üzləşməyəcəksiniz. Risk tələb edən məsələlərdə etibarlı dostlarınıza arxayın ola bilərsiniz.

BALIQLAR - Nahara qədər ətrafınızda baş verənlər ovqatınıza müsbət təsir göstərməyəcək. Buna baxmayaraq, təmkinli olsanız, xəta sovuşacaq. Saat 15-dən sonra maraqlı təkliflər gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Maşının mühərrikində özünə yuva quran ilan



Türkiyədə Taylan Eraslan adlı sürücünün maşınından ilan çıxıb. Daha doğrusu, bir neçə gün maşının mühərrik hissəsində özünə yuva quran ilanı sürücü təsadüfən aşklarlayıb. Mühərrikin yağını dəyişmək üçün onun qapağını qaldırarkən içəridə dolanmış ilanı görərək şok keçirib. 3 metr uzunluğundakı ilanı iynə ilə sakitləşdirdikdən sonra çıxara biliblər. İlan daha sonra təbiətə buraxılıb. T.Eraslan xəstəxanada çalışır. Ötən həftə eyni xəstəxananın başqa bir işçisinin də maşınından 2 metr uzunluğunda ilan çıxıbmış. Xəstəxana rəhbərliyi ərazidə xüsusi təmizləmə əməliyyatı keçirir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100